**Fitosanitar nəzarəti sahəsində bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Fitosanitar nəzarəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 2 avqust tarixli 441 nömrəli Fərmanının 1.3-cü, 1.5-ci, ~~1.8-ci,~~ 1.9-cu, 1.13-cü və 1.14-cü yarımbəndlərinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**[1]

1. "Fitosanitar sertifikatının nümunəvi forması", "Azərbaycan Respublikasında aşkar edilməyən, məhdud dairədə yayılmış və ölkə üçün potensial təhlükə törədə bilən karantin tətbiq edilən zərərli orqanizmlərin Siyahısı", ~~"Bitki və bitkiçilik məhsullarının idxalına və ixracına, təkrar ixracına, Azərbaycan Respublikasının ərazisində daşınmasına və dövriyyəsinə idxal karantin icazəsinin, təkrar ixracat fitosanitar sertifikatının və fitosanitar sertifikatlarının verilməsi Qaydaları",~~ "Azərbaycan Respublikasına gətirilmiş və respublikadan aparılması nəzərdə tutulan karantin nəzarətində olan materiallara fitosanitar karantin baxışının keçirilməsi və *ekspertizanın* aparılması Qaydaları", "Fitosanitar sertifikatının verilməsi üçün tələb olunan sənədlərin Siyahısı", "Azərbaycan Respublikasının ərazisindən tranzit daşınan karantin nəzarətində olan materiallar üzərində fitosanitar nəzarətinin həyata keçirilməsi Qaydası" təsdiq edilsin (əlavə olunur).[2]

2. "Azərbaycan Respublikasının ərazisində aşkar olunmayan və ya məhdud dairədə yayılan ziyanvericilərin, bitki xəstəlikləri və törədicilərinin və alaq otlarının (karantin obyektlərinin) Siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 13 aprel tarixli 44 nömrəli qərarı qüvvədən düşmüş hesab edilsin.

3. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

Bakı şəhəri, 29 dekabr 2006-cı il
280

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2006-cı il 29 dekabr tarixli 280 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**FİTOSANİTAR SERTİFİKATININ NÜMUNƏVİ FORMASI**

__________________

Bitki karantini və mühafizəsi təşkilatı ______________________________
Bitki karantini və mühafizəsi təşkilatına(larına) ______________________________

**I. Yükün təsviri**

İxracatçının adı və ünvanı ______________________________
Yükü qəbul edənin adı və ünvanı ______________________________
Qablaşdırılan materialların təsviri və sayı ______________________________
Nişanlama (markalama) ______________________________
Mənşəyi ______________________________
Daşınma üsulu ______________________________
Daxilolma məntəqəsi ______________________________
Məhsulun adı və miqdarı ______________________________
Bitkilərin botaniki adı ______________________________

Bununla təsdiq edilir ki, yuxarıda qeyd edilən bitkilər, bitki mənşəli məhsullar və ya karantin nəzarətində olan digər materiallar müvafiq qaydalara uyğun müayinə və ya təhlil edilmiş və idxalçı ölkə tərəfindən sadalanmış karantin tətbiq edilən zərərli orqanizmlərdən azad hesab olunmuşlar, həmçinin bunlar nizamlanan karantin tətbiq edilməyən zərərli orqanizmlərə də şamil edilməklə, idxalçı ölkənin mövcud fitosanitar tələblərinə də cavab verirlər.

Bu məhsullar praktik olaraq digər zərərli orqanizmlərdən azad hesab olunurlar. *

**II. Əlavə deklarasiya**

______________________________

**III. Zərərsizləşdirmə**

Tarix __________ işləmə üsulu __________ kimyəvi maddə (fəal tərkib) __________
Ekspozisiya və temperatur ______________________________
Qatılıq
(konsentrasiya) ______________________________
Əlavə məlumat ______________________________
Verilmə yeri ______________________________

M.Y.
[3] (*Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin* möhürü)

Dövlət fitosanitar müfəttişinin soyadı ______________________
Tarix________ ______________________
(imza)

* Bu sertifikata görə __________________ *Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinə*, onun müfəttişlərinə və ya nümayəndələrinə heç bir maliyyə öhdəliyi tətbiq edilmir.

It is confirmed with Decree of the Cabinet
of Ministers of Azerbaijan Republic,
date 29 december 2006 280

**MODEL PHYTOSANITARY CERTIFICATE**

No. ______________

Plant Protection Organization of ______________________________
TO: Plant Protection Organization(s) of ______________________________

**I. Description of Consignment**

Name and address of exporter: ______________________________
Declared name and address of consignee: ______________________________
Number and description of packages: ______________________________
Distinguishing marks: ______________________________
Place of origin: ______________________________
Declared means of conveyance: ______________________________
Declared point of entry: ______________________________
Name of produce and quantity declared: ______________________________
Botanical name of plants:______________________________

This is to certify that the plants, plant products or other regulated articles described herein have been inspected and/or tested according to appropriate official procedures and are considered to be free from the quarantine pests specified by the importing contracting party and to conform with the current phytosanitary requirements of the importing contracting party, including those for regulated non-quarantine pests.

They are deemed to be practically free from other pests*.

**II. Additional Declaration**

______________________________

**III. Disinfestation and/or Disinfection Treatment**

Date________________ treatment______________ chemical (active ingredient) ________________
Duration and temperature ______________________________
Concentration ______________________________
Additional information ______________________________

(Stamp of Organization)

Place of issue ______________________
Name of authorized officer ______________________
Date __________ ______________________
(signature)

УТВЕРЖДЕНО
постановлением Кабинета Министров
Азербайджанской Республики
от «29» декабря 2006 года 280

**Модель Фитосанитарного сертификата**

______________

Организация по карантину и защите растений ____________________________________________
Кому: Организации (ям) по карантину и защите растений____________________________________

**II. Описание груза**

Экспортер и его адрес ______________________________________________________________
Заявленный получатель и его адрес _________________________________________________
Количество мест и описание упаковки _______________________________________________
Отличительные знаки (маркировка) _________________________________________________
Место происхождения ______________________________________________________________
Заявленный способ транспортировки _________________________________________________
Заявленный пункт ввоза ____________________________________________________________
Наименование продукции и заявленное количество _______________________________________
Ботаническое название ______________________________________________________________

Настоящим удостоверяется, что растения, растительные продукты или другие подкарантинные материалы, описанные выше, были обследованы и/или проанализированы, согласно соответствующим официальным процедурам, и признаны свободными от карантинных вредных организмов, перечисленных импортирующей договаривающейся стороной и отвечают действующим фитосанитарным требованиям импортирующей договаривающейся стороны, включая таковые и для регулируемых некарантинных вредных организмов.

Они считаются практически свободными от других вредных организмов[*].

**III. Дополнительная декларация**

_____________________________________________________________________________________

**IV. Обеззараживание**

Дата __________способ обработки __________химикат (действующее вещество) ________________
Экспозиция и температура ___________________________________________________________
Концентрация _____________________________________________________________________
Дополнительная информация _________________________________________________________

Место выдачи _________________________________________
(печать организации) Фамилия уполномоченного инспектора _______________________
Дата __________________ ___________________________
(подпись)

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2006-cı il 29 dekabr tarixli 280 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**Azərbaycan Respublikasında aşkar edilməyən, məhdud dairədə yayılmış və ölkə üçün potensial təhlükə törədə bilən karantin tətbiq edilən zərərli orqanizmlərin SİYAHISI**

**AZƏRBAYCAN RESPUBLİKASI ƏRAZİSİNDƏ AŞKAR EDİLMƏYƏN, KARANTİN TƏTBİQ EDİLƏN ZƏRƏRLİ ORQANİZMLƏR (A 1 QRUPU)**

***Həşəratlar (İ)***[4]

1. Ağhaşiyəli böcək — Graphognathus (Pantomorus) leucoloma Boheman
2. Alma qızılböcəyi — Agrilus mali Matsumura
3. Alma milçəyi — Rhagoletis pomonella (Walsh)
4. Amerika yonca minalayıcısı — Liriomyza trifolii (Burgess)
5. Aralıq dənizi meyvə milçəyi — Ceratitis capitata (Wiedemann)
6. Armud odlucası — Numonia pyrivorella (Matsumura)
7. Asiya pambıq sovkası — Spodoptera litura (Fabricius)
8. Böyük naringi milçəyi — Tetradacus citri (Chen)
9. Braziliya dənyeyəni — Zabrotes subfasciatus (Boheman)
~~10. Buğda nematodu — Anguina tritici (Steinbuch) Chitwood~~[5]
~~11. Çəltik nematodu — Aphelenchoides besseyi Christie~~
12. Çin toxumyeyəni — Callosobruchus chinensis Linnaeus
~~13. Dəyişik ipək sarıyan — Lymantria dispar Linnaeus (asian race) (Asiya rast)~~
14. Enlixortumlu düyü uzunburunu — Caulophilus latinasus (Say)
15. Əməköməci güvəsi — Pectinophora malvella Hb.
16. Əncir mumlu yalançı — Ceroplastes rusci Linnaeus qalxanlı yastıcası
~~17. Gövdə nematodu — Ditylenchus dipsaci (Kühen) Filipjev~~
18. Kapr böcəyi — Trogoderma granarium Everts
~~19. Kartof gövdə nematodu — Ditylenchus destructor Thorne~~
~~20. Kolumbiya kök fır nematodu — Meloidogyne chitwoodi Golden et al.~~
21. Qabaq milçəyi — Dacus ciliatus Loew
22. Qara sitrus ağqanadlısı — Aleurocanthus woglumi Ashby
23. Qara yalançı qalxanlı yastıcası — Parasaissetia nigra (Nietner)
24. Qərb qarğıdalı böcəyi — Diabrotica virgifera Leconte
25. Qərənfil yarpaqbükəni — Cacoecimorpha pronubana (Hübner)
~~26. Qızılı kartof nematodu — Globodera rostochiensis (Wollenweber) Behrens~~
27. Meyvə uzunburunu — Conotrachelus nenuphar (Herbst)
28. Misir pambıq sovkası — Spodoptera littoralis Boisduval
29. Palma tripsi — Thrips palmi Karny
30. Pambıq ağqanadlısı — Bemisia tabaci (Gennadius)
31. Pambıq güvəsi — Pectinophora gossypiella (Saunders)
32. Portağal qalxanlı yastıcası — Unaspis citri (Comstock)
33. Şaftalı meyvəyeyəni — Carposina niponensis Walsigham
~~34. Şam gövdə nematodu — Bursaphelenchus xylophilus (Steiner et Buhrer) Nickle~~
35. Şərq pambıq uzunburunu — Anthonomus grandis Boheman
36. Şərq sitrus qalxanlı yastıcası — Unaspis yanonensis (Kuwana)
37. Şərq unlu yastıcası — Pseudococcus citriculus Green
38. Şərq yemiş milçəyi — Bactrocera cucurbitae (Coguillett)
39. Sitrus unlu yastıcası — Pseudococcus gahani Green
~~40. Solğun kartof nematodu — Globodera pallida (Stone) Behrens~~
41. Tikanlı yastıca — Earias insulana Boisduval
42. Tüklü ağqanadlı — Aleurothrixus floccocus Maskell
43. Yaponiya böcəyi — Popillia japonica Newmann
44. Zeytun yalançı qalxanlı yastıcası — Saissetia oleae (Olivier)
45. Zolaqlı meyvə güvəsi — Anarsia lineatella Zeller
*46. Zümrüdü göyrüş qızılböcəyi*[6] — *Agrilus planipennis Fairmaire*
*47. Çin uzunbığ böcəyi* — *Anoplophora chinensis Forster*

| | |
|---|---|
| *48. Asiya uzunbığ böcəyi* | *Anoplophora glabripennis Motschulsky* |
| *49. Afrika yemiş milçəyi* | *Bactrocera cucurbitae Coquillett* |
| *50. Çinar taxtabitisi* | *Corythucha ciliata Say* |
| *51. Böyük küknar qabıqyeyəni* | *Dendroctonus micans (Kugelann)* |
| *52. Asiya giləmeyvə drozofilası* | *Drosophila suzukii (Matsumura)* |
| *53. Kartof torpaq birəböcəyi* | *Epitrix cucumeris Harris* |
| *54. Kök yumrusu birəböcəyi* | *Epitrix tuberis Gentner* |
| *55. Cənubi Amerika yarpaq lağımlayıcısı* | *Liriomyza huidobrensis Blanchard* |
| *56. Tərəvəz yarpaq lağımlayıcısı* | *Liriomyza sativae Blanchard* |
| *57. Yaponiya şam uzunbığ böcəyi* | *Monochamus alternatus Hope* |
| *58. Karolina uzunbığ böcəyi* | *Monochamus carolinensis Olivier* |
| *59. Kiçik küknar uzunbığ* | *böcəyi Monochamus sutor L.* |
| *60. Qırmızı palma böcəyi* | *Rhynchophorus ferrugineus Olivier* |
| *61. Amerika üzüm cırcıraması* | *Scaphoideus titanus Ball* |
| *62. Qvatemala kartof güvəsi* | *Tecia solanivora Povolny* |
| *63. Qara sitrus mənənəsi* | *Toxoptera citricidus (Kirkaldy)* |

***Nematodlar (N)***[7]

| | |
|---|---|
| *1. Buğda nematodu* | *Anguina tritici (Steinbuch) Chitwood* |
| *2. Kolumbiya kök fır nematodu* | *Meloidogyne chitwoodi Golden & al.* |
| *3 . Kolumbiya yalanç ı kök fır nematodu* | *Meloidogyne fallax Karssen* |
| *4. Nizəşəkilli nematod* | *Xiphinema rivesi Dalmasso* |
| *5. Çəltik nematodu* | *Aphelenchoides besseyi Christie* |
| *6. Solğun kartof nematodu* | *Globodera pallida (Stone) Behrens* |
| *7. Şam gövdə nematodu* | *Bursaphelenchus xylophilus (Steiner & Bührer)* |

**Bakteriyalar *və fitoplazmalar (B)***[8]

| | |
|---|---|
| 1. Çəltikdə bakterial yanıqlıq (Ishiyama) | Xanthomonas oryzae pv. oryzae Swings et al. |
| 2. Çəltikdə bakterial zolaqlılıq | Xanthomonas oryzae pv. oryzicola (Fang et al.) Swings et al. |
| 3. Fındıqda bakterioz | Xanthomonas campestris pv. corylina (Miller et al.)Dye |
| 4. Kartof yumrularında halqavari bakterial çürümə | Clavibacter michiganensis subsp sepedonicus (Spieckermann et Kotthoff) Davis et al. |
| *5. Kartofun qonur çürüməsi*[9] | *Ralstonia solanacearum (Smith) Yabuuchi et al.";* |
| 6. Qarğıdalının bakterial (vilt) | Erwinia stewartii (Smith) Dye soluxması |
| 7. Qərənfildə bakterial soluxma | Pseudomonas caryophylli (Burkholder) Star et Burkholder |
| 8. Lobyada bakterial yanıqlıq | Xanthomonas campestris pv. Phaseoli (Smith) Dye |
| ~~*9. Meyvə ağaclarının yanığı*~~[10] | ~~*Erwinia amylovora (Burrill) Winslow et al.*~~ |
| 10. Pomidorda bakterial dəmgil | Xanthomonas campestris pv. vesicatoria Dye |
| 11. Sitrus bitkilərinin xərçəngi | Xanthomonas campestris pv. citri (Hasse) Dye |
| *12. Üzümün bakteriozu (Pirs xəstəliyi)*[11] | *Xylella fastidiosa Wells et al.* |
| *13. Üzümdə qızılı saralma fitoplazması* | *Grapevine flavescence doree phytoplasma";* |

**Göbələklər (F)**

| | |
|---|---|
| 1. Buğdanın hindistan sürməsi | Tilletia indica Mitra |
| ~~2. Buğdanın cırtdan sürməsi~~[12] | ~~Tilletia controversa Kuhn~~ |
| 3. Günəbaxanda fomopsis | Phomopsis helianthi Muntanola - Cvetkoviç et al. |
| 4. Kartofda qanqrena (Fomoz) | Phoma exigua var. foveata (Foister) Boerema |
| 5. Kartof xərçəngi | Synchytrium endobioticum (Schilbersky) Percival |
| 6. Kartof (yumrularının) sürməsi | Thecaphora solani (Thirumulachar et O"Brien) Mordue |
| *7. Qarğıdalıda cənub helmintosporiozu*[13] | *Bipolaris maydis (Nisikado & Miyake) Shoemaker* |
| *8. Qarğıdalıda diplodioz* | *Stenocarpella macrospora (Earle) Sutton Stenocarpella maydis (Berkeley) Sutton* |
| 9. Qarğıdalı yarpağının ləkəliliyi | Cochliobolus carbonum R.R. Nelson |
| 10.Qərənfildə fialoforoz soluxma | Phialophora cinerescens (Wollenweber) van Beyma |
| 11. Qladiolusda pas | Uromyces transversalis ( Von Thümen) Winter |
| 12. Malsekko - yoluxucu quruma | Deuterophoma tracheiphila Petri |
| 13. Pambığın antraknozu | Glomerella qossypii Edgerton |
| 14.Payızgülünün (xrizantem) askoxitozu | Didymella chrysanthemi (Tassi) Garibalaskoxitozu di et. Gullino |
| 15. Payızgülünün ağ pası | Puccinia horiana P. Hennings |
| 16. Sitrus bitkilərinin ziyilliyi | Elsinoe fawcettii Bitancourt et A.E.Jenkins |
| ~~*17. Şabalıdda gövdə yanığı*~~ | ~~*Cryphonectria parasitica (Murrill) Barr*~~ |
| 18. Texas kök çürüməsi | Phymatotrichopsis omnivora(Duggar) Hennebert |
| *19. İynəyarpaqların qəhvəyi ləkəliyi*[14] | *Mycosphaerella dearnessii Barr* |
| *20. Qonur monilioz çürümə* | *Monilinia fructicola (G.Winter) Honey* |
| *21. Çiyələk və moruğun kök çürümə fitoftorozu* | *Phytophthora fragariae C.J. Hickman* |

**Virus, ~~*mikoplazma*~~ və viroidlər (V)**[15]

| | |
|---|---|
| 1. Sitrus virusu | Tristeza virus |
| *2. Kartofun and latent virusu* | *Andean potato latent virus* |
| *3. Lobyanın qızılı mozaika virusu* | *Bean golden mosaic virus* |
| *4. Xınagülünün ləkəli nekroz virusu* | *Impatiens necrotic spot virus* |
| *5. Gavalının cibcibə virusu* | *Plum pox virus* |
| *6. Kartof yumrularının milşəkilliliyi viroidi* | *Potato spindle tuber viroid* |
| *7. Tütünün həlqəvi ləkəlik virusu* | *Tobacco ringspot virus* |
| *8. Pomidorun həlqəvi ləkəlik virusu* | *Tomato ringspot virus* |
| *9 . Pomidor meyvələrinin qonur qırışıqlıq virusu* | *Tomato brown rugose fruit virus* |
| *10. Pepino mozaika virusu* | *Pepino mosaic virus* |

| | |
|---|---|
| *11. Pomidor yarpaqlarının sarı qıvrılma virusu* | *Tomato yellow leaf curl virus* |

**Alaq otları və parazit bitkilər (W)**

| | |
|---|---|
| 1. Azçiçəkli senxrus (lövbərli) | Cenchrus pauciflorus Bentham |
| 2. Çoxillik ambroziya | Ambrosia psilostachya De Candolle |
| 3. Karolina quşüzümü | Solanum carolinense Linnaeus |
| 4. Striqa (bütün növləri) | Striga sp. |
| 5. Tumurcuqlu kəndalaş | Iva axillaris Pursh |
| 6. Üçdilimli ambroziya | Ambrosia trifida Linnaeus |
| 7. Üççiçəkli quşüzümü | Solanum triflorum Nuttall |
| 8. Zolaqyarpaqlı quşüzümü | Solanum elaeagnifolium Cavara |
| *9. Tükcüklü pişikdili*[16] | *Bidens pilosa L.* |

**AZƏRBAYCAN RESPUBLİKASI ƏRAZİSİNDƏ MƏHDUD DAİRƏDƏ YAYILMIŞ KARANTİN TƏTBİQ EDİLƏN ZƏRƏRLİ ORQANİZMLƏR**
**(A 2 QRUPU)**

**Həşəratlar (A)**

| | |
|---|---|
| 1. Amerika ağ kəpənəyi | Hyphantria cunea Drury |
| 2. Avstraliya şırımlı yastıcası | Icerya purchasi Maskell |
| 3. Dördləkəli dənyeyən | Callosobruchus maculatus Fabricius |
| 4. Filloksera Viteus vitifoliae (Fitch) | |
| 5. Kaliforniya qalxanlı yastıcası | Quadraspidiotus perniciosus (Comstosk) |
| ~~*6. Kolorado kartof böcəyi*~~[17] | ~~*Leptinotarsa decemlineata Say*~~ |
| 7. Komstok yastıcası | Pseudococcus comstocki Kuwana |
| 8. Minalayıcı sitrus güvəsi | Phyllocnistis citrella Stainton |
| ~~*9. Sitrus ağqanadlısı*~~ | ~~*Dialeurodes citri (Ashmead)*~~ |
| 10. Şərq meyvəyeyəni | Grapholita molesta (Busck) |
| 11. Tut qalxanlı yastıcası | Pseudoulacaspis pentagona (Targioni-Tozzetti) |
| 12. Yaponiya çöpvari qalxanlı yastıcası | Lopholeucaspis japonica (Cockerell) |
| 13. Yaponiya yalançı qalxanlı mumlu yastıcası | Ceroplastes japonicus Green |
| *14. Pomidor lağımlayıcı güvəsi* | *Tuta absoluta Meyrick* |
| *15. Qərb çiçək tripsi* | *Frankliniella occidentalis (Pergande)* |
| *16. Qəhvəyi mərmər bağacığı* | *Halyomorpha halys Stal*[18] |

***Nematodlar (N)***[19]

| | |
|---|---|
| *1. Qızılı kartof nematodu* | *Globodera rostochiensis (Wollenweber) Behrens* |
| *2. Gövdə nematodu* | *Ditylenchus dipsaci (Kuehn) Filipjev* |
| *3. Kartof gövdə nematodu* | *Ditylenchus destructor Thorne* |

***Bakteriyalar və fitoplazmalar (B)***

| | |
|---|---|
| *1. Meyvə ağaclarının yanığı* | *Erwinia amylovora (Burrill) Winslow et al.* |

***Göbələklər (F)***

| | |
|---|---|
| *1. Şabalıdda gövdə yanığı* | *Cryphonectria parasitica (Murrill) Barr* |

***Viruslar (V)***

| | |
|---|---|
| *1. Pomidorun bürünclük virusu* | *Tomato spotted wilt virus* |

**Alaq otları və parazit bitkilər (W)**

| | |
|---|---|
| 1. Sarı sarmaşıq (bütün növləri) | Cuscuta sp. |
| 2. Sürünən kəkrə (çəhrayı) | Acroptilon repens (Linnaeus) De Candolle |
| 3. Tikanlı quşüzümü | Solanum cornutum Dunal |
| 4. Yovşan yarpaqlı ambroziya | Ambrosia artemisiifolia Linnaeus |

**AZƏRBAYCAN RESPUBLİKASI ÜÇÜN POTENSİAL TƏHLÜKƏ TÖRƏDƏ BİLƏN ZƏRƏRVERİCİLƏR**
**(B 1 QRUPU)**

**Həşəratlar (A)**

| | |
|---|---|
| 1. Kartof güvəsi | Phthorimaea operculella (Zeller) |

-

~~Azərbaycan Respublikası Nazirlər Kabinetinin~~
~~2006-cı il 29 dekabr tarixli 280 nömrəli qərarı ilə~~
~~TƏSDİQ EDİLMİŞDİR~~

-

**~~Bitki və bitkiçilik məhsullarının idxalına və ixracına, təkrar ixracına, Azərbaycan Respublikasının ərazisində daşınmasına və dövriyyəsinə idxal karantin icazəsinin, təkrar ixracat fitosanitar sertifikatı və fitosanitar sertifikatlarının verilməsi~~**

-

**~~QAYDALARI~~**[20]

-

**~~I. ÜMUMİ MÜDDƏALAR~~**

-

~~1.1. Bu Qaydalar "Fitosanitar nəzarəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 2 avqust tarixli 441 nömrəli Fərmanının 1.8-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə hazırlanmışdır və bitki və bitkiçilik məhsullarının idxalına və ixracına, təkrar ixracına, Azərbaycan Respublikasının ərazisində daşınmasına və dövriyyəsinə idxal karantin icazəsinin, təkrar ixracat fitosanitar sertifikatı və fitosanitar sertifikatlarının verilməsini tənzimləyir.~~

~~1.2. Bu Qaydalara uyğun olaraq bitki və bitkiçilik məhsullarının idxalına və ixracına,təkrar ixracına, Azərbaycan Respublikasının ərazisində daşınmasına və dövriyyəsinə idxal karantin icazəsinin, təkrar ixracat fitosanitar sertifikatı və fitosanitar sertifikatlarının verilməsi hüquqi və fiziki şəxslərin vəsaitləri hesabına aparılır.~~

~~Hüquqi və fiziki şəxslərə göstərilən fitosanitar xidmətlərə görə ödənilən vəsaitlərin məbləği Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası tərəfindən müəyyən edilir.~~

-

**~~II. BİTKİ VƏ BİTKİÇİLİK MƏHSULLARININ İDXALINA İDXAL KARANTİN İCAZƏSİNİN VERİLMƏSİ~~**

-

~~2.1. Karantin tətbiq edilən zərərli orqanizmləri yaya bilən bitki və bitkiçilik məhsullarının Azərbaycan Respublikasının ərazisinə idxal karantin icazəsi olmadan gətirilməsinə yol verilmir.~~

~~2.2. Hüquqi və fiziki şəxslər (bundan sonra-ərizəçi) yükü idxal etməzdən əvvəl müəyyən olunmuş siyahıya uyğun olaraq karantin nəzarətində olan zərərli orqanizmləri yaya bilən bitki və bitkiçilik məhsullarına idxal karantin icazəsinin alınması üçün Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin yanında Dövlət Fitosanitar Nəzarəti Xidmətinə (bundan sonra - Dövlət Xidməti) *"Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 18.1-ci maddəsinə uyğun olaraq* rəsmi müraciət etməlidirlər.~~[21]

~~Ərizədə aşağıdakılar öz əksini tapmalıdır:~~

~~hüquqi şəxslər üçün - hüquqi şəxsin adı, təşkilati-hüquqi forması, hüquqi ünvanı;~~

~~fiziki şəxslər üçün - soyadı, adı, atasının adı, şəxsiyyəti təsdiq edən vəsiqə haqqında məlumatlar (seriya, nömrə, nə vaxt və kim tərəfindən verilmişdir, ünvanı).~~

~~Ərizə ilə birlikdə aşağıdakı sənədlər təqdim olunmalıdır:~~

~~hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında şəhadətnamənin surəti;~~

~~fiziki şəxslərin sahibkarlıq fəaliyyəti ilə məşğul olması və vergi orqanları tərəfindən uçota alınması haqqında şəhadətnamənin surəti;~~

~~idxal olunan bitki və bitkiçilik məhsulları barədə məlumat;~~

~~məhsulun adı və miqdarı (hər növ üzrə);~~

~~ixracatçı ölkənin adı (məhsulun mənşəyi barədə məlumat);~~

~~məhsulun respublikaya daxil olma tarixi, sərhəd buraxılış məntəqəsinin adı (dəniz və ya hava limanı, dəmiryol stansiyası, avtostansiya və s.);~~

~~məhsulun yekun təyinatı və istifadə yeri;~~

~~əkin və səpin üçün gətirilməsi nəzərdə tutulan toxumun sortluq və səpin keyfiyyətini təsdiq edən uyğunluq sertifikatı.~~

~~Təqdim olunan ərizə və yuxarıda sadalanan sənədlər Dövlət Xidməti tərəfindən xüsusi kitabda qeydə alınmaqla qəbul edilir və qeydə alındığı gündən başlayaraq 15 gün müddətindən gec olmamaq şərtilə baxılır, çatışmazlıqlar və ya imtina üçün əsas olmadıqda, ərizəçiyə Dövlət Xidməti tərəfindən bu Qaydaların 1 nömrəli əlavəsindəki nümunəvi formaya uyğun idxal karantin icazəsi verilir.~~

~~Dövlət reyestrində qeydiyyata alınmamış səpin və əkin materiallarına idxal karantin icazəsi Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin müvafiq qurumlarının rəyi nəzərə alınmaqla verilir.~~

~~2.3. Bu Qaydaların 2.2-ci bəndində göstərilən əsaslarla idxal karantin icazəsinin verilməsindən imtina edildiyi halda ərizəçiyə imtinanın səbəbləri göstərilməklə yazılı məlumat verilir, onlar aradan qaldırıldıqdan və sənədlər təkrar təqdim edildikdən sonra 5 gün müddətində baxılır və idxal karantin icazəsi verilir.~~

~~İdxal karantin icazəsi 3 nüsxədən ibarət tərtib olunur, iki nüsxəsi ərizəçiyə təqdim edilir, bir nüsxəsi isə Dövlət Xidmətində saxlanılır. Dövlət Xidməti 2 gün müddətində idxal karantin icazəsinin verilməsi barədə müvafiq dövlət sərhədinin buraxılış məntəqələrinə məlumat verməlidir.~~[22]

2.4. İdxal karantin icazəsi verildiyi gündən 3 ay müddətində qüvvədədir.

2.5. İdxal karantin icazəsinin verilməsindən aşağıdakı hallarda imtina edilir:

bu Qaydaların 2.2-ci bəndində nəzərdə tutulan sənədlər təqdim edilmədikdə;

ərizəçinin təqdim etdiyi sənədlərdə qeyri-dürüst və ya təhrif olunmuş məlumatlar olduqda;

Azərbaycan Respublikasının ərazisi üçün ciddi təhlükə yaradan karantin tətbiq edilən zərərli orqanizmlərə qarşı qadağa və məhdudiyyətlər qoyulduqda.

2.6. Bitki və bitkiçilik məhsulları ixrac edən ölkənin fitosanitar sertifikatı ilə müşayiət olunmalı və respublikaya hermetik bağlı plomblanmış vaqonlarda, barjlarda, gəmilərdə, avtomaşınlarda, konteynerlərdə və digər nəqliyyat vasitələrində nəzərdə tutulan sərhəd buraxılış məntəqəsindən daxil olmalıdır.

2.7. İdxal karantin icazəsi olmadan, ixrac edən ölkənin fitosanitar sertifikatı ilə müşayiət olunan və gömrük tələblərinə riayət edilməklə müvafiq qaydada fitosanitar karantin nəzarətindən keçirilən aşağıdakı bitki və bitkiçilik məhsullarının gətirilməsinə icazə verilir:

seleksiya, tədqiqat, sınaq və sərgilərdə nümayiş etdirmək üçün səpin və əkin nümunələri;

Azərbaycan Respublikasında fəaliyyət göstərən xarici ticarət təşkilatlarının ünvanına poçt göndərişləri ilə daxil olan 100 kiloqrama qədər bitki mənşəli məhsul və xammal nümunələri.

2.8. Azərbaycan Respublikasına başqa dövlətlərdən idxal karantin icazəsi və fitosanitar sertifikatı olmadan, gömrük orqanları tərəfindən əlaqələndirilən və müvafiq qaydada fitosanitar karantin nəzarətindən keçirilən aşağıdakı bitkiçilik məhsullarının gətirilməsinə icazə verilir:

nişasta, üyüdülmüş kofe, rafinasiya olunmuş şəkər, maya otu, xına və basma;

sərnişinlərin, gəmi və təyyarə heyəti üzvlərinin əl yüklərində, poçt bağlamalarında istehsal və kommersiya məqsədləri üçün nəzərdə tutulmayan 50 kiloqramadək karantin nəzarətində olan materiallar.

**III. BİTKİ VƏ BİTKİÇİLİK MƏHSULLARININ İXRACINA FİTOSANİTAR SERTİFİKATLARININ VERİLMƏSİ**

3.1. Azərbaycan Respublikasından ixrac olunan bitki və bitkiçilik məhsullarının beynəlxalq standartların tələblərinə uyğun olmasını təmin etmək məqsədilə bu məhsulların fitosanitar sertifikatlaşdırılması aparılır.

3.2. Fitosanitar sertifikatları və ya onların elektron əvəzediciləri beynəlxalQ
standartların tələbləri nəzərə alınmaqla tərtib edilir və Dövlət Xidməti tərəfindən verilir.

3.3. Fitosanitar sertifikatlarında təsdiq edilməmiş dəyişiklik və düzəlişlərin aparılmasına yol verilmir.

3.4. İxrac edilən bitki və bitkiçilik məhsullarına fitosanitar sertifikatları aşağıdakı hallarda verilir:

3.4.1. sertifikatın verilməsi üçün müraciət edildikdə və xidmət haqqı ödənildikdə;

3.4.2. qanunvericiliklə müəyyən edilmiş qaydada tələb olunan müvafiQ
sənədlər təqdim olunduqda;

3.4.3. sertifikat verilməsi nəzərdə tutulan yüklər baxış keçirilməsi və digər tədbirlərin aparılması üçün təqdim edildikdə;

3.4.4. göndərilən yüklər beynəlxalq standartların tələblərinə cavab verdikdə.

3.5. Ərizəçi yük partiyasını ixrac üçün yola salmazdan ən azı 5 gün əvvəl Dövlət Xidmətinin yerli qurumlarına qanunvericiliklə müəyyən olunmuş sənədlərlə müraciət etməlidir.

Təqdim olunan ərizə xüsusi kitabda qeydə alınmaqla qəbul edilir və qeydə alındığı gündən başlayaraq 3 gün müddətində baxılır.

3.6. İxrac olunan yüklərə ətraflı fitosanitar karantin baxışı ilk yüklənmə yerində, hava, dəniz və çay limanlarında, dəmiryol stansiyalarında və digər təkrar yüklənmə məntəqələrində (ixrac partiyasının formalaşması zamanı) həyata keçirilir. Azərbaycan Respublikası dövlət sərhədinin buraxılış məntəqələrində fitosanitar nəzarətini gömrük orqanları həyata keçirirlər.[23]

3.7. Dövlət Xidmətinin yerli qurumları tərəfindən ixrac olunan bitki və bitkiçilik məhsullarının becərilmə dövründə aparılan müşahidələrin və müvafiq laboratoriya ekspertizasının nəticələri əsasında ətraflı fitosanitar karantin baxışı keçirilir, mal partiyasının formalaşdırılması məqsədilə və bu məhsulun sərhəd fitosanitar nəzarəti məntəqəsinə çatdırılması üçün məhdudiyyətlərin qoyulmasına əsas olmadıqda, bu Qaydaların 2 nömrəli əlavəsindəki nümunəvi formaya uyğun daxili karantin sertifikatı verilir. Daxili karantin sertifikatı 2 nüsxədə hazırlanır, onun bir nüsxəsi ərizəçiyə (yük sahibinə) verilir, digər nüsxəsi isə Dövlət Xidmətinin yerli qurumunda saxlanılır. Daxili karantin sertifikatının verilməsi barədə Dövlət Xidmətinin yerli qurumu tərəfindən dərhal məhsulun respublikadan ixrac olunduğu sərhəd fitosanitar nəzarəti məntəqəsinə bildiriş göndərilir.

Sərhəddə bitki və bitkiçilik məhsulları boşaldılaraq qablaşdırıldığı, ixrac partiyalarına formalaşdırıldığı və nəqliyyat vasitəsinə yükləndiyi zaman ərizəçi müvafiq daxili karantin sertifikatlarını fitosanitar nəzarəti məntəqəsinə təqdim etməlidir. Dövlət fitosanitar müfəttişləri yükə vizual fitosanitar karantin baxışı keçirirlər. Məhdudiyyətlərə və qadağa qoyulmasına əsas olmadıqda, ərizəçi tərəfindən təqdim olunmuş daxili karantin sertifikatları əsasında yükə (hər nəqliyyat vahidinə) fitosanitar sertifikatı verilir.

Fitosanitar sertifikatı 2 nüsxədə hazırlanır, onun bir nüsxəsi ərizəçiyə (yük sahibinə) verilir, digər nüsxəsi isə Dövlət Xidmətinin sərhəd fitosanitar nəzarəti məntəqəsində saxlanılır.[24]

3.8. İxrac olunan yüklərdövlət sərhədinin buraxılış məntəqələrində boşaldılmadan birbaşa xarici dövlətlərə göndərilir. Bitki və bitkiçilik məhsulları mal partiyası formalaşdığı və göndərildiyi yerlərdə qablaşdırılır, plomblanır və nəqliyyat vasitələrinə yüklənir. Həmin yükə Dövlət Xidmətinin yerli qurumları tərəfindən 2 nüsxədə fitosanitar sertifikatı hazırlanır və onun bir nüsxəsi həmin qurumda saxlanılır,bir nüsxəsi isə ərizəçiyə verilir. Ərizəçi yükü sərhədə çatdırdıqda, fitosanitar sertifikatı gömrük orqanlarına göstərməlidir və yük açılmadan, bölünmədən, digər yüklərə qarışdırılmadan və yenidən qablaşdırılmadan müəyyən olunmuş qaydada üzərində, gömrük tələblərinə riayət etməklə, vizual fitosanitar karantin baxışı həyata keçirilərək yola salınmalıdır.[25]

Baxış zamanı yükün üzərində və ya daşındığı nəqliyyat vasitələrində karantin tətbiq edilən zərərli orqanizmlər aşkar olunduqda yük saxlanılır, səbəbi göstərilməklə dövlət fitosanitar müfəttişləri tərəfindən müəyyən olunmuş qaydada akt tərtib olunur və yük geri qaytarılır. Bu barədə dərhal Dövlət Xidmətinə məlumat verilir.

3.9. Bu Qaydaların 3.4-3.8-ci bəndlərinə uyğun aparılan tədbirlər nəticəsində fitosanitar sertifikatının verilməsindən imtina edildiyi halda ərizəçiyə imtinanın səbəbləri göstərilməklə Dövlət Xidmətinin müvafiq qurumları tərəfindən yazılı məlumat verilir.

3.10. Fitosanitar sertifikatının verilməsindən aşağıdakı hallarda imtina edilir:

qanunvericilikdə nəzərdə tutulan sənədlər təqdim edilmədikdə;

ərizəçinin təqdim etdiyi sənədlərdə qeyri-dürüst və ya təhrif olunmuş məlumatlar olduqda;

fitosanitar karantin baxışı zamanı karantin tətbiq edilən zərərli orqanizmlər aşkar edildikdə.

3.11. Çatışmazlıqlar aradan qaldırıldıqdan və aşkar olunmuş karantin tətbiq edilən zərərli orqanizmlər müəyyən olunmuş qaydada zərərsizləşdirildikdən sonra ərizəçinin müvafiq yükünə fitosanitar sertifikatı verilir.

Zərərsizləşdirmə əməliyyatları fitosanitar sertifikatında öz əksini tapmalıdır.

**IV. BİTKİ VƏ BİTKİÇİLİK MƏHSULLARININ TƏKRAR İXRACINA (TRANZİTİNƏ), ÖLKƏ ƏRAZİSİNDƏ DAŞINMASINA VƏ DÖVRİYYƏSİNƏ TƏKRAR İXRACAT FİTOSANİTAR SERTİFİKATI VƏ FİTOSANİTAR SERTİFİKATLARININ VERİLMƏSİ**[26]

4.1. Karantin nəzarətində olan bitki və bitkiçilik məhsulları Azərbaycan Respublikasının ərazisindən açılmadan, bölünmədən, digər yüklərlə qarışdırılmadan və yenidən qablaşdırılmadan başqa ölkələrə daşınarkən, həmin yüklər ixrac edən ölkənin fitosanitar sertifikatı ilə müşayiət olunmalıdır.

4.2. Dövlət Xidmətinin yerli qurumları tərəfindən ölkə daxilində daşımalar zamanı bitki və bitkiçilik məhsullarının becərilmə dövründə aparılan müşahidələrin və müvafiq *ekspertizanın* nəticələri əsasında ətraflı fitosanitar karantin baxışı keçirilir və bu Qaydaların 2 nömrəli əlavəsindəki nümunəvi formaya uyğun daxili karantin sertifikatı verilir. Daxili karantin sertifikatı 2 nüsxədə hazırlanır, onun bir nüsxəsi ərizəçiyə (yük sahibinə) verilir, digər nüsxəsi isə Dövlət Xidmətinin yerli qurumunda saxlanılır.[27]

Fitosanitar karantin baxışı zamanı yükün üzərində və ya daşındığı nəqliyyat vasitələrində karantin tətbiq edilən zərərli orqanizmlər aşkar olunduqda, yük sahibinin razılığı ilə qanunvericiliklə müəyyən olunmuş qaydada zərərsizləşdirilməlidir. Yük sahibinin razılığı olmadığı halda dövlət fitosanitar müfəttişləri tərəfindən müəyyən olunmuş qaydada akt tərtib olunur və həmin yüklər geri qaytarılır. Bu barədə dərhal ixracatçıya (daşıyıcıya və ya digər səlahiyyətli şəxsə) rəsmi məlumat verilir.

4.3. Gətirilə bitki və bitkiçilik məhsulları Azərbaycan Respublikasının ərazisində dövriyyədə olduqda, hissələrə bölündükdə, digər yüklərə birləşdirildikdə və ya yenidən qablaşdırıldıqda Dövlət Xidməti tərəfindən gömrük tələblərinə riayət edilməklə müəyyən olunmuş qaydada fitosanitar karantin baxışı aparılır, təkrar ixrac (tranzit) olunduqda müvafiq fitosanitar tədbirləri həyata keçirilir və bu Qaydaların 3 nömrəli əlavəsindəki nümunəvi formaya uyğun, fitosanitar sertifikatı və ya təkrar ixracat fitosanitar sertifikatı verilir.[28]

Təkrar ixracat fitosanitar sertifikatı 2 nüsxədən ibarət hazırlanır, bir nüsxəsi yük sahibinə verilir, digər nüsxəsi isə Dövlət Xidmətinin müvafiq qurumunda saxlanılır.

"Bitki və bitkiçilik məhsullarının idxalına və ixracına,
Azərbaycan Respublikasının ərazisindən tranzit daşınmasına
və dövriyyəsinə idxal karantin icazəsinin və
fitosanitar sertifikatlarının verilməsi Qaydaları"na
1 NÖMRƏLİ ƏLAVƏ

**İDXAL KARANTİN İCAZƏSİ (nümunəvi forma)**
**Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin yanında Dövlət Fitosanitar Nəzarəti Xidməti**

İcazə verilir ________________________________________
(hüquqi və ya fiziki şəxsin adı)

idxal olunsun________________________________________
(ölkənin adı)

aşağıda göstərilən karantin nəzarətində olan materiallar ____________________
(materialın adı və miqdarı)

________________________________________

qoyulmuş karantin tələblərini nəzərə almaqla.

1. Gətirilən bitki mənşəli materiallar:

a) qeyd olunan karantin orqanizmlərindən azad olmalıdır, bu şərtlə ki, onlar digər iqtisadi cəhətdən təhlükəli orqanizmlərdən azad olsunlar
________________________________________

b) əlavə qoyulmuş karantin tələblərinə cavab verməlidir ____________________
________________________________________

c) hər gətirilən yük partiyası ixrac edən ölkənin bitki karantini və mühafizəsi təşkilatı tərəfindən verilmiş və yola salınan bitki mənşəli materialın a) və b) yarımbəndlərində qoyulan tələbləri təsdiqləyən fitosanitar sertifikatla müşayiət olunmalıdır.

2) Yuxarıda adları qeyd olunan bitki mənşəli materiallar ____________________ 200 ____ il
tarixədək gətirilməlidir. Göstərilən sərhəd keçid məntəqələrindən keçərək
________________________________________

3) Daxil olduqları məntəqələrdə gətirilən materiallar fitosanitar karantin baxışından və *müayinə məqsədi ilə ekspertizadan* keçirilməlidir (yük daxil olan məntəqədən təyinat yerinə qədər)[29]
________________________________________

4) Bu idxal karantin icazəsi ilə gətirilən bitki mənşəli materiallar göstərilən marşrut üzrə daşınmalı və daxil olduğu məntəqədə aşağıda qeyd olunan fitosanitar tədbirlərindən keçirilməlidir
________________________________________

5) İcazənin verilməsi üçün əsas
________________________________________

Verilmə tarixi____________________ 200____ il

M.Y. ____________________ **Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin yanında**

~~(Stamp of Organization)~~ ~~Name of authorized officer~~ ____________________
~~Date~~ ____________________
~~(signature)~~

-

~~ПРИЛОЖЕНИЕ 3~~
~~к «Правилам выдачи импортного карантинного~~
~~разрешения и фитосанитарных сертификатов~~
~~на экспорт и импорт растений и растениеводческой~~
~~продукции, транзит и ее оборот по территории~~
~~Азербайджанской Республики~~

-
-

**~~Модель реэкспортного фитосанитарного сертификата~~**

~~Организация по карантину и защите растений~~ ____________________
~~Кому: Организация по карантину и защите растений~~ ____________________
~~(договаривающейся стороны импортера)~~

**~~I. Описание груза~~**

~~Экспортер и его адрес~~ ____________________
~~Заявленный получатель и его адрес~~ ____________________
~~Количество мест и описание упаковки~~ ____________________
~~Отличительные знаки (маркировка)~~ ____________________
~~Место происхождения~~ ____________________
~~Заявленный способ транспортировки~~ ____________________
~~Заявленный пункт ввоза~~ ____________________
~~Наименование продукции и заявленное количество~~ ____________________
~~Ботаническое название растений~~ ____________________

~~Настоящим удостоверяется, что растения, растительные продукты или другие подкарантинные материалы, описанные выше, были импортированы в (договаривающуюся сторону реэкспортера)~~ ____________________ ~~из~~ ____________________

~~(договаривающейся стороны происхождения) по фитосанитарному сертификату~~ ______ *
~~оригинал , заверенная копия подлинника которого прилагается к настоящему сертификату, что они упакованы , переупакованы в оригинальные , новые контейнеры, что на основании оригинального фитосанитарного сертификата и дополнительного обследования они считаются отвечающим действующим фитосанитарным требованиям импортирующей договаривающейся стороны и, что во время хранения~~ ____________________ ~~(договаривающейся стороне реэкспортере) груз не подвергался риску заражения вредными организмами.~~

~~*Отметьте соответствующие квадраты~~

**~~II. Дополнительная декларация~~**

-

**~~III.Обеззараживание~~**

~~Дата~~ ______ ~~способ обработки~~ ____________ ~~химикат (действующее вещество)~~ ____________________
~~Экспозиция и температура~~ ____________________
~~Концентрация~~ ____________________
~~Дополнительная информация~~ ____________________
~~Место выдачи~~ ____________________
~~(печать организации)~~ ~~Фамилия уполномоченного инспектора~~ ____________________
~~Дата~~ ____________________
~~(подпись)~~

-

-

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2006-cı il 29 dekabr tarixli 280 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

-

## Azərbaycan Respublikasına gətirilmiş və respublikadan aparılması nəzərdə tutulan karantin nəzarətində olan materiallarafitosanitar karantin baxışının keçirilməsi və *ekspertizanın* aparılması

## QAYDALARI[31]

1. Bu Qaydalar "Fitosanitar nəzarəti haqqında" Azərbaycan Respublikası Qanunun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 2 avqust tarixli 441 nömrəli Fərmanının 1.9-cu yarımbəndinin icrasını təmin etmək məqsədilə hazırlanmışdır və Azərbaycan Respublikasına gətirilmiş və respublikadan aparılması nəzərdə tutulan karantin nəzarətində olan materiallarafitosanitar karantin baxışının keçirilməsini və *ekspertizanın* aparılmasını tənzimləyir.

2. Azərbaycan Respublikasına gətirilmiş və respublikadan aparılması nəzərdə tutulan karantin nəzarətində olan materiallara fitosanitar karantin baxışı və *ekspertiza* Azərbaycan Respublikası *Qida Təhlükəsizliyi Agentliyinin regional bölmələri (bundan sonra – regional bölmə)* tərəfindən həyata keçirilir.[32]

3. Fitosanitar karantin baxışı aşağıdakı məqsədlərlə aparılır:

3.1. karantin tətbiq edilən zərərli orqanizmlərin ölkə ərazisinə daxil olmasının və yayılmasının qarşısının alınması;

3.2. ölkəyə gətirilmiş və ya ölkədən aparılması nəzərdə tutulan zaman karantin nəzarətində olan materialların karantin tətbiq edilən zərərli orqanizmlərin və nizamlanan qeyri-karantin zərərli orqanizmlərin aşkar edilməsi;[33]

3.3. karantin tətbiq edilən zərərli orqanizmlərin əraziyə daxil olması təhlükəsi yarandığı hallarda bitki və bitkiçilik məhsullarının respublikaya gətirilməsinin qadağan edilməsi və ya məhdudlaşdırılması;

3.4. karantin nəzarətində olan materiallarınölkədən aparılması nəzərdə tutulan zaman yükün idxalçı ölkələrin fitosanitar tələblərinə uyğunluğunun öyrənilməsi v~~ə lazım gəldikdə~~ fitosanitar karantin baxışının keçdiyi yükə fitosanitar sertifikatının verilməsi.[34]

4. Ölkəyə gətirilmiş və ölkədən aparılması nəzərdə tutulankarantin nəzarətində olan materiallara fitosanitar karantin baxışı üç müxtəlif üsulla yerinə yetirilir:[35]

4.1. yükü müşayiət edən sənədlərin yoxlanılması;

4.2. yükün etibarlılığının və bütövlüyünün yoxlanılması;

4.3. karantin tətbiq edilən zərərli orqanizmlərin mövcudluğunun və digər fitosanitar tələblərə riayət olunmasının vizual və karantin nəzarətində olan materialların zərərli orqanizmlərlə sirayətlənməsi mövcud olduğu müəyyən edildiyi halda ətraflı yoxlamadan keçirilməsi.

5. Karantin nəzarətində olan materialları müşayiət edən sənədlərin yoxlanılmasında aşağıdakılara diqqət yetirilir:

5.1. bütövlüyünə (tamlığına);

5.2. ardıcıllığına;

5.3. dəqiqliyinə;

5.4. həqiqiliyinə;

5.5. etibarlılığına.

Yükün bütövlüyünə və etibarlılığına baxış müşayiətedici sənədlərdə yükün təsvirinin həqiqiliyinin yoxlanılmasından ibarətdir.

Sənədlərin həqiqiliyinin yoxlanılması zamanı bitkilərin tipinin və ya bitkiçilik məhsullarının və ya onların növünün alınmış və ya verilməyə hazırlanan fitosanitar sertifikata uyğunluğu müəyyən edilir.

Sənədlərin bütövlüyünün yoxlanılması zamanı alınmış və ya verilməyə hazırlanan sertifikatda göstərilmiş yükün miqdarının və statusunun tələblərə nə dərəcədə uyğunluğu müəyyən edilir.

Yükün bütövlüyünün və etibarlılığının təsdiqlənməsi üçün möhürlərin, qoruyucu və fitosanitar əhəmiyyətə malik yüklərin, o cümlədən baxış işinə aid olan digər vasitələrin mövcudluğunun yoxlanılması da daxil olmaqla, yüklərlə tanışlıq tələb *olunur*.[36]

6. Ölkəyə gətirilən karantin nəzarətində olan materiallar müvafiq sənədlərlə müşayiət olunduğu və plomblanmış nəqliyyat vasitələrində daxil olduğu halda gömrük tələblərinə riayət edilməklə, fitosanitar nəzarəti məntəqələrində yük açılmadan üzərində vizual fitosanitar karantin baxışı həyata keçirilərək yola salınmalıdır.

Vizual fitosanitar karantin baxışı zamanı yükün üzərində və ya daşındığı nəqliyyat vasitələrində karantin tətbiq edilən zərərli orqanizmlər aşkar olunduqda, yük saxlanılaraq gömrük orqanlarının iştirakı ilə götürülür və sahibinin razılığı ilə qanunvericiliklə müəyyən olunmuş qaydada zərərsizləşdirilir. Yük sahibinin razılığı olmadığı halda dövlət fitosanitar müfəttişləri tərəfindən müəyyən olunmuş qaydada akt tərtib edilir və yük geri qaytarılır. Bu barədə dərhal ixracatçıya (daşıyıcıya və ya digər səlahiyyətli şəxsə) rəsmi məlumat verilir.

7. Zərərli orqanizmlərlə sirayətlənməsi riskinin mövcud olduğu müəyyən edildiyi halda *regional bölmə* tərəfindən yük sahibinə aşağıdakılar barədə yazılı bildiriş verilir:[37]

7.1. yüklərin fitosanitar nəzarəti məntəqəsinə aparılaraq karantin rejiminin tətbiq olunması;

7.2. yüklərdən ekspertiza və analiz aparmaq məqsədilə nümunələrin götürülməsi və nəticələr əldə olunanadək yükün saxlanılması;

7.3. zərərsizləşdirmə *məqsədi ilə* yükün götürülməsi və zərərsizləşdirmə prosesindən sonra sahibinə qaytarılması;[38]

7.4. zərərsizləşdirmə məqsədilə yükün boşaldılıb yenidən yüklənməsi;

7.5. yükün məhv edilməsinin zəruriliyi.

8. Bu Qaydaların 7-ci bəndində göstərilən fitosanitar tədbirləri aparıldıqdan sonra*regional bölmənin* müvafiq fitosanitar nəzarəti məntəqəsi tərəfindən qanunvericiliklə müəyyən olunmuş qaydada zərərsizləşdirilmiş və beynəlxalq tələblərə uyğun qablaşdırılmış karantin nəzarətində olan bitki və bitkiçilik məhsuluna fitosanitar sertifikatı verilir.

9. Ölkəyə gətirilmiş karantin nəzarətində olan materialların ətraflı fitosanitar karantin baxışı respublika daxilində təyinat məntəqələrində, bitki mənşəli məhsulları emal edən müəssisələrin, ticarət təşkilatlarının anbarlarında və digər saxlanma yerlərində yerinə yetirilir.[39]

10. Fitosanitar karantin baxışı zamanı həyata keçirilən fitosanitar tədbirlərin xərci və məhv edilən yükün dəyərinin məsuliyyəti yük sahibinin üzərinə düşür.

11. Fitosanitar karantin baxışı zamanı Azərbaycan Respublikasının ərazisi üçün ciddi təhlükə yaradan karantin tətbiq edilən zərərli orqanizmlər aşkar edildikdə, müvafiq təxirəsalınmaz tədbirlər görülür və bu barədə əlaqədar beynəlxalq təşkilatlara məlumat verilir.

12. Azərbaycan Respublikasından aparılması nəzərdə tutulan yüklərə ətraflı fitosanitar karantin baxışı ilk yüklənmə yerində və hava, dəniz və çay limanlarında, dəmiryol stansiyalarında və digər təkrar yüklənmə məntəqələrində (ixrac partiyasının formalaşması zamanı) həyata keçirilir.[40]

13. *regional bölmə* tərəfindən ölkə daxilində daşımalar zamanı bitki və bitkiçilik məhsullarının becərilmə dövründə aparılan müşahidələrin və müvafiq*ekspertizanın* nəticələri əsasında ətraflı fitosanitar karantin baxışı keçirilir və daxili karantin sertifikatı verilir.[41]

14. İxrac olunan yüklər dövlət sərhədinin buraxılış məntəqələrində boşaldılmadan birbaşa xarici dövlətlərə göndərilir. Bitki və bitkiçilik məhsulları mal partiyasının formalaşdığı və göndərildiyi yerlərdə qablaşdırılır, plomblanır və nəqliyyat vasitələrinə yüklənir. Həmin yükə *regional bölmə* tərəfindən 2 nüsxədə fitosanitar sertifikatı hazırlanır və onun bir nüsxəsi həmin qurumda saxlanılır,bir nüsxəsi isə ərizəçiyə verilir. Ərizəçi respublikadan ixrac olunduğu yükü ölkə sərhədinə çatdırdıqda, fitosanitar sertifikatı gömrük orqanlarına göstərməlidir və yük açılmadan, bölünmədən, digər yüklərə qarışdırılmadan və yenidən qablaşdırılmadan üzərində vizual fitosanitar karantin baxışı həyata keçirilərək yola salınmalıdır.[42]

~~15. Vizual fitosanitar karantin baxışı zamanı yükün üzərində və ya daşındığı nəqliyyat vasitələrində karantin tətbiq edilən zərərli orqanizmlər aşkar olunduqda, yük sərhəddə saxlanılır, səbəbi göstərilməklə dövlət fitosanitar müfəttişləri tərəfindən müəyyən olunmuş qaydada akt tərtib olunur və yük geri qaytarılır. Bu barədə dərhal Dövlət Xidmətinə məlumat verilir.~~ [43]

16. Karantin tətbiq edilən zərərli orqanizmlərlə sirayətlənmiş ərazilərdən sirayətlənməmiş ərazilərə və ya ölkədən aparılması üçün nəzərdə tutulan daxili karantin nəzarətində olan materialları daşıyarkən, onlara ətraflı fitosanitar karantin baxışı əsasən yüklənmə məntəqələrində aparılır.

~~17. Karantin tətbiq edilən zərərli orqanizmlərin ölkə ərazisinə daxil olmasının və yayılmasının qarşısının alınması məqsədilə baqajlarda, poçt bağlamalarında, habelə nəqliyyat vasitələrində Azərbaycan Respublikasına gələn sərnişinlərin və heyət üzvlərinin əl yüklərində gətirilən bitki və bitkiçilik məhsullarına, gömrük tələblərinə riayət etməklə, müvafiq fitosanitar nəzarəti məntəqələrində vizual fitosanitar~~

~~karantin baxışı keçirilir.~~[44]

Baxış zamanı yükün üzərində karantin tətbiq edilən zərərli orqanizmlər aşkar olunduqda, yük saxlanılır və qanunvericiliklə müəyyən olunmuş qaydada zərərsizləşdirilir və ya zəruri hallarda məhv edilir.

18. Bitki və bitkiçilik məhsullarının xüsusiyyətlərindən asılı olaraq, ətraflı fitosanitar karantin baxışı və*ekspertiza* üçün nümunələrin götürülməsi və onların müayinəsi *Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi* tərəfindən hazırlanmış təlimat əsasında həyata keçirilir.[45]

19. Fitosanitar karantin baxışı zamanı götürülən bitki mənşəli və digər karantin nəzarətində olan materialların nümunələri *ekspertizadan* keçirilir.

20. *Ekspertizaya* aşağıdakılar daxildir:

20.1. bitkilərin karantin zərərvericilərini, xəstəlik törədicilərini və təhlükəli alaq otlarını aşkar etmək məqsədilə - entomoloji, fitopatoloji, virusoloji, bakterioloji, fitohelmintoloji və herboloji təhlillərin aparılması;

20.2. aşkar edilmiş zərərli orqanizmlərin hansı növə aid olduğunun təyin edilməsi;

20.3. təyin edilmiş obyektlərin mümkün olan (potensial) təhlükəsi və onlara qarşı karantin tədbirləri haqqında laboratoriya mütəxəssislərinin rəyi.

21. Karantin tətbiq edilən zərərli orqanizmlər üzrə rəy 2-3 gün ərzində, canlı bitki materialları üzrə isə (tinglər, qələmlər, çiçək soğanaqları, kök yumruları və s.) material alınan günün sonrakı günündən gec olmayaraq verilməlidir.

Çətin və uzunmüddətli tədqiqatlar (virusoloji, bakterioloji, fitopatoloji, helmintoloji, rentgenoqrafik) aparılan zaman, karantin nəzarətində olan materialların *ekspertizaya* verilməsi və onların karantin vəziyyəti haqqında rəyin gecikdirilməsinin maksimum müddəti bir aydan artıq olmamalıdır.

22. *Ekspertiza* prosesi nəqliyyatı yubatmamalı, sənaye və ticarət təşkilatlarının işini pozmamalı və karantin nəzarətində olan materiallar daxil olan təsərrüfatlarda səpinin vaxtında aparılmasına təsir etməməlidir.

23. *Ekspertiza* zamanı karantin nəzarətində olan materialların nümunələrinin etiketlərinin dəyişik salınmasına, eləcə də onların qarışdırılmasına yol verilmir.

24. Ekspertiza laboratoriyasının mütəxəssisləri aşağıdakılara riayət etməlidirlər:

24.1. ekspertiza üçün götürülmüş toxumları nəzarətsiz qoymamalı;

24.2. hər bir nümunə üzrə başlanmış ekspertizanı işdə fasilə olana qədər qurtarmalı;

24.3. bir dəfəyə eyni vaxtda daxil olan bir neçə nümunələri açmamalı;

24.4. analiz olunması növbəti günə təyin edilmiş karantin nəzarətində olan materialları onlar üçün xüsusi ayrılmış, bağlanan şkafda açılmadan bütöv saxlamalı, kisələrdə olan canlı bitkilərin (tinglər, əkin materialları) nümunələrini isə sərin yerdə qablaşdırma materiallarının lazımi nəmliyini qorumaqla saxlamalı.

25. Azərbaycan Respublikasına gətirilən və Azərbaycan Respublikasından aparılan karantin nəzarətində olan materialların *ekspertiza* hüquqi və fiziki şəxslərin vəsaitləri hesabına aparılır.

26. Hüquqi və fiziki şəxslərə göstərilən fitosanitar xidmətlərə görə ödənilən vəsaitlərin məbləği Azərbaycan Respublikasının *Nazirlər Kabineti* tərəfindən müəyyən edilir.[46]

27. Ekspertiza zamanı aşkar edilmiş karantin tətbiq edilən zərərli orqanizmlər, zədələnmiş bitki hissələri hesabat məlumatlarını təsdiqləyən nümunə kimi laboratoriyada və *Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin* müvafiq qurumlarında müəyyən olunmuş qaydada qeydə alınmaqla saxlanılır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2006-cı il 29 dekabr tarixli 280 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**Fitosanitar sertifikatının verilməsi üçün tələb olunan sənədlərin**
**S İY AHI S I**

Fitosanitar sertifikatının verilməsi üçün aşağıdakı sənədlər tələb olunur:

1) fitosanitar sertifikatının verilməsi üçün fiziki və ya hüquqi şəxsin müraciəti:

fiziki şəxslər üçün - soyadı, adı, atasının adı, şəxsiyyəti təsdiq edən vəsiqə haqqında məlumatlar (seriya, nömrə, nə vaxt və kim tərəfindən verilmişdir, ünvanı);

hüquqi şəxslər üçün - hüquqi şəxsin adı, hüquqi ünvanı;

2) fiziki və hüquqi şəxslər barədə məlumat:[47]

fiziki şəxslər üçün - sahibkarlıq fəaliyyəti ilə məşğul olması barədə vergi orqanları tərəfindən uçota alınması haqqında şəhadətnamənin surəti;

hüquqi şəxslər üçün - dövlət qeydiyyatı haqqında şəhadətnamənin surəti;

3) fitosanitar sertifikatının verilməsi üçün xidmət haqqının ödənilməsi barədə qəbz;

4) fitosanitar sertifikatının verilməsi nəzərdə tutulan bitki və bitkiçilik məhsullarının (yüklərin) təsviri:

ixrac olunan bitki və bitkiçilik məhsullarının adı, mənşəyi və miqdarı (hər növ üzrə);

idxalçı ölkənin adı və yükün daxilolma ünvanı;

məhsulun yüklənmə yeri və tarixi;

yük ixrac edilən sərhəd buraxılış məntəqəsinin adı.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2006-cı il 29 dekabr tarixli 280 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**Azərbaycan Respublikasının ərazisindən tranzit daşınan karantin nəzarətində olan materiallar üzərində fitosanitar nəzarətinin həyata keçirilməsi**

**QA YD AS I**

1. Bu Qayda "Fitosanitar nəzarəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 2 avqust tarixli 441 nömrəli Fərmanının 1.14-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə hazırlanmışdır və Azərbaycan Respublikasının ərazisindən tranzit daşınan karantin nəzarətində olan materiallar üzərində fitosanitar nəzarətinin gömrük orqanları tərəfindən həyata keçirilməsini tənzimləyir.[48]

2. Ölkə ərazisindən tranzit daşınan bitki və bitkiçilik məhsullarının müvafiq sənədlərlə müşayiət olunmadığı və zərərli orqanizmlərlə sirayətlənməsi riski mövcud olduğu halda, onların ölkə ərazisinə daxil olmasının və yayılmasının qarşısının alınması məqsədi ilə gömrük orqanları *Agentliy*ə məlumat verməlidir. *Agentlik* öz növbəsində aşağıdakı fitosanitar tədbirləri həyata keçirir:[49]

2.1. analiz (test), müayinə, məhsulun saxlanması və məhv edilməsi məqsədi ilə bitki və bitkiçilik məhsullarını, digər karantin nəzarətində olan materialları ölkə daxilində yerləşən fitosanitar nəzarəti məntəqələrində saxlamaq, geri qaytarmaq və onların idxalına məhdudiyyətlər qoymaq;

2.2. bitki və bitkiçilik məhsullarının respublikaya gətirilməsini qadağan etmək və ya məhdudlaşdırmaq.[50]

3. Azərbaycan Respublikasının ərazisindən tranzit kimi istifadə edildikdə, bu Qaydanın 2-ci bəndində müəyyən olunmuş fitosanitar tədbirlər o halda tətbiq edilə bilər ki, onlar texniki cəhətdən əsaslandırılsın və karantin tətbiq edilən zərərli orqanizmlərin əraziyə daxil olmasının və yayılmasının qarşısının alınması zərurəti yaranmış olsun.

4. Azərbaycan Respublikasının ərazisindən tranzit daşınan karantin nəzarətində olan materiallara fitosanitar nəzarəti aşağıdakı hallarda fitosanitar tədbirləri tətbiq olunmadan aparılır:

4.1. bitki və bitkiçlik məhsulları zərərli orqanizmlərin yayılmaması üçün plomblanmış nəqliyyat vasitələri ilə və ya konteynerlərlə daşındıqda və beynəlxalq standartların tələblərinə uyğun qablaşdırıldıqda;

4.2. məhsul ixrac edən ölkə tərəfindən fitosanitar sertifikatı ilə təmin edildikdə;

4.3. ölkə ərazisindən başqa ölkələrə daşındığı zaman karantin nəzarətində olan materiallar açılmadıqda, bölünmədikdə, digər yüklərlə qarışdırılmadıqda və yenidən qablaşdırılmadıqda;

4.4. vizual fitosanitar karantin baxışı zamanı yükün üzərində karantin tətbiq edilən zərərli orqanizmlər aşkar olunmadıqda.

5. Bu Qaydanın 4-cü bəndində göstərilən hallarda, gömrük tələblərinə riayət etməklə, fitosanitar nəzarəti həyata keçirildikdən sonra gömrük orqanları tərəfindən yükü müşayiət edən fitosanitar sertifikatında müvafiq ştamp vurulur.[51]

6. Fitosanitar nəzarəti zamanı yükün üzərində və nəqliyyat vasitələrində karantin tətbiq edilən zərərli orqanizmlər aşkar olunduqda, yük sahibinin razılığı ilə bu materiallar qanunvericiliklə müəyyən edilmiş qaydada zərərsizləşdirilir.

Yük sahibinin razılığı olmadığı təqdirdə həmin yüklər geri qaytarılır. Hər iki halda tranzit yükün üzərində aparılan fitosanitar tədbirləri barədə dərhal ixracatçıya (daşıyıcıya və ya digər səlahiyyətli şəxsə) məlumat verilir.

7. Tranzit daşınan karantin nəzarətində olan materiallarda Azərbaycan Respublikasının ərazisi üçün ciddi təhlükə yaradan karantin tətbiq edilən zərərli orqanizmlər aşkar edildikdə, müvafiq təxirəsalınmaz tədbirlər görülür və bu barədə əlaqədar beynəlxalq təşkilatlara məlumat verilir.

8. Tranzit daşınan yük ölkə ərazisində açıldığı, hissələrə bölündüyü, digər yüklərlə qarışdırıldığı və ya yenidən qablaşdırıldığı hallarda *Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin regional bölmələri* tərəfindən həmin yüklərə dair gömrük tələblərinə riayət etməklə müvafiq fitosanitar tədbirləri tətbiq edilir.[52]

**QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

1. 4 sentyabr 2008-ci il tarixli 202 nömrəli Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Qərarı(**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 9, maddə 853** )
2. 28 yanvar 2009-cu il tarixli **14** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 01, maddə 34)**
3. 27 yanvar 2010-cu il tarixli 20 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 01, maddə 66)**
4. 16 noyabr 2016-cı il tarixli **458** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 18 noyabr 2016-cı il, 255, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 11, maddə 1946)**
5. 29 noyabr 2017-ci il tarixli **520** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 1 dekabr 2017-ci il, 265 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 11 , maddə 2182)**
6. 15 oktyabr 2018-ci il tarixli **447** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 19 oktyabr 2018-ci il, 235, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 10, maddə 2162)**
7. 28 dekabr 2019-cu il tarixli **510** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 30 dekabr 2019-cu il, 292, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 12, maddə 2091 )**
8. 16 iyun 2022-ci il tarixli **230** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 6, maddə 6 71)**
9. 30 dekabr 2022-ci il tarixli **459** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikası Nazirlər Kabinetinin rəsmi internet saytı 30 dekabr 2022-ci il, "Xalq" qəzeti, 6 yanvar 2023-cü il, 1, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 12, maddə 1563)**

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

---

* No financial liability with respect to this certificate shall attach to (name of Plant Protection Organization) or to any of its officers or representatives.

* Никаких финансовых обязательств в отношении настоящего сертификата не налагается на ____________________ (наименование организации по карантину и защите растений) или на кого-либо из ее инспекторов или представителей.

* Bu sertifikata görə ______________________________ (bitki karantini və mühafizəsi təşkilatına), onun müfəttişlərinə və ya nümayəndələrinə heç bir maliyyə öhdəliyi tətbiq edilmir.

* No financial liability with respect to this certificate shall attach to______________________ (name of Plant Protection Organization) or to any of its officers or representatives.**

[*] Никаких финансовых обязательств в отношении настоящего сертификата не налагается на ___________________ (наименование организации по карантину и защите растений) или на кого-либо из ее инспекторов или представителей.

---

[1] 27 yanvar 2010-cu il tarixli 20 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 01, maddə 66**) ilə 1-ci bəndində **"Azərbaycan Respublikasının ərazisində daşınmasına, təkrar ixracına"** sözləri **"təkrar ixracına, Azərbaycan Respublikasının ərazisində daşınmasına"** sözləri ilə əvəz edilmişdir.

15 oktyabr 2018-ci il tarixli **447** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 19 oktyabr 2018-ci il, 235, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 10, maddə 2162**) ilə preambuladan "**1.8-ci,**" sözləri çıxarılmışdır.

[2] 28 yanvar 2009-cu il tarixli **14** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 01, maddə 34**) ilə 1-ci bəndində "**Bitki və bitkiçilik məhsullarının idxalına və ixracına, Azərbaycan Respublikasının ərazisindən tranzit daşınmasına və dövriyyəsinə idxal karantin icazəsinin və fitosanitar sertifikatlarının verilməsi Qaydaları**" sözləri "**Bitki və bitkiçilik məhsullarının idxalına və ixracına, Azərbaycan Respublikasının ərazisində daşınmasına, təkrar ixracına və dövriyyəsinə idxal karantin icazəsinin, təkrar ixracat fitosanitar sertifikatının və fitosanitar sertifikatlarının verilməsi Qaydaları**" sözləri ilə, "**gətirilən və Azərbaycan Respublikasından aparılan karantin nəzarətində olan materiallara, o cümlədən baqajlarda, poçt bağlamalarında və sərnişinlərin əl yüklərində gətirilən bitki və bitkiçilik məhsullarına**" sözləri isə "**gətirilmiş və respublikadan aparılması nəzərdə tutulan karantin nəzarətində olan materiallara**" sözləri ilə əvəz edilmişdir.

16 noyabr 2016-cı il tarixli **458** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 18 noyabr 2016-cı il, 255, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 11, maddə 1946**) ilə 1-ci hissədə "**laboratoriya ekspertizasının**" sözləri "**ekspertizanın**" sözü ilə əvəz edilmişdir.

15 oktyabr 2018-ci il tarixli **447** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 19 oktyabr 2018-ci il, 235, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 10, maddə 2162**) ilə 1-ci hissədən "**Bitki və bitkiçilik məhsullarının idxalına və ixracına, təkrar ixracına, Azərbaycan Respublikasının ərazisində daşınmasına və dövriyyəsinə idxal karantin icazəsinin, təkrar ixracat fitosanitar sertifikatının və fitosanitar sertifikatlarının verilməsi Qaydaları**"," sözləri çıxarılmışdır.

[3] 15 oktyabr 2018-ci il tarixli **447** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 19 oktyabr 2018-ci il, 235, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 10, maddə 2162**) ilə "Fitosanitar sertifikatının nümunəvi forması"nda "**Bitki karantini və mühafizəsi təşkilatının**" sözləri "**Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin** " sözləri ilə və **"(bitki karantini və mühafizəsi təşkilatına)**" sözləri "**Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinə** " sözləri ilə əvəz edilmişdir.

[4] 16 iyun 2022-ci il tarixli **230** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 6, maddə 671** ) ilə "Azərbaycan Respublikası ərazisində aşkar edilməyən, karantin tətbiq edilən zərərli orqanizmlər (A1 qrupu)"nun "Həşəratlar (A)" hissəsinin "**Həşəratlar (A)**" sözləri "**Həşəratlar (İ)"** sözləri ilə əvəz edilmişdir.

[5] 16 iyun 2022-ci il tarixli **230** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 6, maddə 671** ) ilə "Azərbaycan Respublikası ərazisində aşkar edilməyən, karantin tətbiq edilən zərərli orqanizmlər (A1 qrupu)"nun 10-cu, 11-ci, 13-cü, 17-ci, 19-cu, 20-ci, 26-cı, 34-cü və 40-cı bəndləri ləğv edilmişdir.

[6] 16 iyun 2022-ci il tarixli **230** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 6, maddə 671** ) ilə "Azərbaycan Respublikası ərazisində aşkar edilməyən, karantin tətbiq edilən zərərli orqanizmlər (A1 qrupu)"nın Həşəratlar (A)" hissəsinə yeni məzmunda 46-63-cü bəndlər əlavə edilmişdir.

[7] 16 iyun 2022-ci il tarixli **230** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 6, maddə 671** ) ilə "Azərbaycan Respublikası ərazisində aşkar edilməyən, karantin tətbiq edilən zərərli orqanizmlər (A1 qrupu)"nun "Həşəratlar (A)" hissəsindən sonra yeni məzmunda "Nematodlar (N)" hissəsi əlavə edilmişdir.

[8] 16 iyun 2022-ci il tarixli **230** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 6, maddə 671** ) ilə "Azərbaycan Respublikası ərazisində aşkar edilməyən, karantin tətbiq edilən zərərli orqanizmlər (A1 qrupu)"nun "Bakteriyalar (V)" hissəsinin adında **"(V)"** hərfi "**və fitoplazmalar (B)"** sözləri ilə əvəz edilmişdir.

[9] 16 iyun 2022-ci il tarixli **230** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 6, maddə 671** ) ilə "Azərbaycan Respublikası ərazisində aşkar edilməyən, karantin tətbiq edilən zərərli orqanizmlər (A1 qrupu)"nun "Bakteriyalar (V)" hissəsinin 5-ci bəndi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~5. Kartofun qonur çürüməsi Ralstonia solanacearum race 1(Smith) Yabuuchi et al.~~

[10] 16 iyun 2022-ci il tarixli **230** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 6, maddə 671** ) ilə "Azərbaycan Respublikası ərazisində aşkar edilməyən, karantin tətbiq edilən zərərli orqanizmlər (A1 qrupu)"nun "Bakteriyalar (V)" hissəsinin 9-cu bəndi ləğv edilmişdir.

[11] 16 iyun 2022-ci il tarixli **230** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 6, maddə 671** ) ilə "Azərbaycan Respublikası ərazisində aşkar edilməyən, karantin tətbiq edilən zərərli orqanizmlər (A1 qrupu)"nun "Bakteriyalar (V)" hissəsinə yeni məzmunda 12-ci və 13-cü bəndlər əlavə edilmişdir.

[12] 16 iyun 2022-ci il tarixli **230** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 6, maddə 671** ) ilə "Azərbaycan Respublikası ərazisində aşkar edilməyən, karantin tətbiq edilən zərərli orqanizmlər (A1 qrupu)"nun "Göbələklər (F)" hissəsinin 2-ci və 17-ci bəndləri ləğv edilmişdir.

[13] 16 iyun 2022-ci il tarixli **230** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 6, maddə 671** ) ilə "Azərbaycan Respublikası ərazisində aşkar edilməyən, karantin tətbiq edilən zərərli orqanizmlər (A1 qrupu)"nun "Göbələklər (F)" hissəsinin 7-ci və 8-ci bəndləri yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~7. Qarğıdalıda cənub Cochliobolus heterostrophus (Drechsler) helmintosporiozu (T rası) Drechsler (Race T)(Helminthosporium maydis Nisikado et Miyake)~~

~~8. Qarğıdalıda diplodioz Stenocarpella macrosporaEarle Sutton (Stenocarpella maydis Berkeley Sutton)~~

[14] 16 iyun 2022-ci il tarixli **230** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 6, maddə 671** ) ilə "Azərbaycan Respublikası ərazisində aşkar edilməyən, karantin tətbiq edilən zərərli orqanizmlər (A1 qrupu)"nun "Göbələklər (F)" hissəsinə yeni məzmunda 19-21-ci bəndlər əlavə edilmişdir.

[15] 16 iyun 2022-ci il tarixli **230** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 6, maddə 671** ) ilə "Azərbaycan Respublikası ərazisində aşkar edilməyən, karantin tətbiq edilən zərərli orqanizmlər (A1 qrupu)"nun "Virus, mikoplazma və viroidlər (V)" hissəsinin adından ", **mikoplazma**" sözü çıxarılmışdır və yeni məzmunda 2-11-ci bəndlər əlavə edilmişdir.

[16] 16 iyun 2022-ci il tarixli **230** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 6, maddə 671** ) ilə "Azərbaycan Respublikası ərazisində aşkar edilməyən, karantin tətbiq edilən zərərli orqanizmlər (A1 qrupu)"nun "Alaq otları və parazit bitkilər (W)" hissəsinə yeni məzmunda 9-cu bənd əlavə edilmişdir.

[17] 16 iyun 2022-ci il tarixli **230** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 6, maddə 671** ) ilə "Azərbaycan Respublikası ərazisində aşkar edilməyən, karantin tətbiq edilən zərərli orqanizmlər "Azərbaycan Respublikası ərazisində məhdud dairədə yayılmış karantin tətbiq edilən zərərli orqanizmlər (A 2 qrupu)"nun "Həşəratlar (A)" hissəsində 6-cı və 9-cu bəndlər ləğv edilmişdir və yeni məzmunda 14-cü və 15-ci bəndlər əlavə edilmişdir.

[18] 30 dekabr 2022-ci il tarixli **459** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikası Nazirlər Kabinetinin rəsmi internet saytı 30 dekabr 2022-ci il, "Xalq" qəzeti, 6 yanvar 2023-cü il, 1, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 12, maddə 1563**) ilə "Azərbaycan Respublikasında aşkar edilməyən, məhdud dairədə yayılmış və ölkə üçün potensial təhlükə törədə bilən karantin tətbiq edilən zərərli orqanizmlərin Siyahısı"nın "Azərbaycan Respublikası ərazisində məhdud dairədə yayılmış karantin tətbiq edilən zərərli orqanizmlər (A 2 qrupu)"nun "Həşəratlar (A)" hissəsinə yeni məzmunda 16-cı bənd əlavə edilmişdir.

[19] 16 iyun 2022-ci il tarixli **230** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 6, maddə 671** ) ilə "Azərbaycan Respublikası ərazisində aşkar edilməyən, karantin tətbiq edilən zərərli orqanizmlər "Azərbaycan Respublikası ərazisində məhdud dairədə yayılmış karantin tətbiq edilən zərərli orqanizmlər (A 2 qrupu)"nun yeni məzmunda "Nematodlar (N)", "Bakteriyalar və fitoplazmalar (B)", "Göbələklər (F)" və "Viruslar (V)" hissələri əlavə edilmişdir.

[20] 28 yanvar 2009-cu il tarixli **14** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 01, maddə 34**) ilə "Bitki və bitkiçilik məhsullarının idxalına və ixracına, Azərbaycan Respublikasının ərazisindən tranzit daşınmasına və dövriyyəsinə idxal karantin icazəsinin və fitosanitar sertifikatlarının verilməsi Qaydaları"nın adında, 1.1-ci və 1.2-ci bəndlərdə "**idxalına və ixracına,**" sözlərindən sonra "**təkrar ixracına,**" sözləri əlavə edilmişdir, "**ərazisindən tranzit**" sözləri "**ərazisində**" sözü ilə əvəz edilmişdir və "**idxal karantin icazəsinin**" sözlərindən sonra "**, təkrar ixracat fitosanitar sertifikatı** " sözləri əlavə edilmişdir.

[21] 29 noyabr 2017-ci il tarixli **520** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 1 dekabr 2017-ci il, 265 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 11 , maddə 2182**) ilə "Bitki və bitkiçilik məhsullarının idxalına və ixracına, təkrar ixracına, Azərbaycan Respublikasının ərazisində daşınmasına və dövriyyəsinə idxal karantin icazəsinin, təkrar ixracat fitosanitar sertifikatı və fitosanitar sertifikatlarının verilməsi Qaydaları"nın 2.2-ci bəndinə "**Dövlət Fitosanitar Nəzarəti Xidmətinə (bundan sonra - Dövlət Xidməti)**" sözlərindən sonra **"Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 18.1-ci maddəsinə uyğun olaraq** " sözləri əlavə edilmişdir.

[22] 28 yanvar 2009-cu il tarixli **14** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 01, maddə 34**) ilə "Bitki və bitkiçilik məhsullarının idxalına və ixracına, Azərbaycan Respublikasının ərazisindən tranzit daşınmasına və dövriyyəsinə idxal karantin icazəsinin və fitosanitar sertifikatlarının verilməsi Qaydaları"nın 2.3-cü bəndin ikinci abzasında "**sərhəd fitosanitar nəzarəti məntəqəsinə**" sözləri "**dövlət sərhədinin buraxılış məntəqələrinə** " sözləri ilə əvəz edilmişdir.

[23] 28 yanvar 2009-cu il tarixli **14** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 01, maddə 34**) ilə "Bitki və bitkiçilik məhsullarının idxalına və ixracına, Azərbaycan Respublikasının ərazisindən tranzit daşınmasına və dövriyyəsinə idxal karantin icazəsinin və fitosanitar sertifikatlarının verilməsi Qaydaları"nın 3.6-cı bəndə yeni məzmunda ikinci cümlə əlavə edilmişdir.

[24] 28 yanvar 2009-cu il tarixli **14** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 01, maddə 34**) ilə "Bitki və bitkiçilik məhsullarının idxalına və ixracına, Azərbaycan Respublikasının ərazisindən tranzit daşınmasına və dövriyyəsinə idxal karantin icazəsinin və fitosanitar sertifikatlarının verilməsi Qaydaları"nın 3.7-ci bənd çıxarılmışdır.

[25] 28 yanvar 2009-cu il tarixli **14** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 01, maddə 34**) ilə "Bitki və bitkiçilik məhsullarının idxalına və ixracına, Azərbaycan Respublikasının ərazisindən tranzit daşınmasına və dövriyyəsinə idxal karantin icazəsinin və fitosanitar sertifikatlarının verilməsi Qaydaları"nın 3.8-ci bəndin birinci abzasının birinci cümləsində "**sərhəddə fitosanitar nəzarəti məntəqəsində**" və "**göndərilərkən, bitki və**" sözləri müvafiq olaraq "**dövlət sərhədinin buraxılış məntəqələrində**" və "**göndərilir. Bitki və**" sözləri ilə, ikinci cümləsində " **3**" rəqəmi "**2**" rəqəmi ilə və "**iki**" sözü "**bir**" sözü ilə, üçüncü cümləsində isə "**sertifikatının bir nüsxəsini Dövlət Xidmətinin fitosanitar nəzarəti məntəqəsinə verməlidir** " sözləri "**sertifikatı gömrük orqanlarına göstərməlidir**" sözləri ilə əvəz edilmişdir.

[26] 28 yanvar 2009-cu il tarixli **14** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 01, maddə 34**) ilə "Bitki və bitkiçilik məhsullarının idxalına və ixracına, Azərbaycan Respublikasının ərazisindən tranzit daşınmasına və dövriyyəsinə idxal karantin icazəsinin və fitosanitar sertifikatlarının verilməsi Qaydaları"nın IV bölmənin adı yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~**IV. BİTKİ VƏ BİTKİÇİLİK MƏHSULLARININ TRANZİT DAŞINMASINA VƏ DÖVRİYYƏSİNƏ TƏKRAR İXRACAT FİTOSANİTAR SERTİFİKATININ VERİLMƏSİ**~~

**[27]** 28 yanvar 2009-cu il tarixli **14** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 01, maddə 34**) ilə "Bitki və bitkiçilik məhsullarının idxalına və ixracına, Azərbaycan Respublikasının ərazisindən tranzit daşınmasına və dövriyyəsinə idxal karantin icazəsinin və fitosanitar sertifikatlarının verilməsi Qaydaları"nın 4.2-ci bəndin birinci abzası yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~4.2. Tranzit olunan bitki və bitkiçilik məhsulları zərərli orqanizmlərin yayılmaması üçün plomblanmış nəqliyyat vasitələrində daxil olmalı və fitosanitar nəzarəti məntəqələrində açılmadan gömrük orqanları ilə əlaqələndirilməklə, qanunvericilikdə nəzərdə tutulmuş qaydada üzərində fitosanitar nəzarəti həyata keçirilərək yola salınmalıdır.~~

16 noyabr 2016-cı il tarixli **458** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti, 18 noyabr 2016-cı il, 255, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 11, maddə 1946**) ilə 4.2-ci bəndin birinci abzasının birinci cümləsində “**laboratoriya ekspertizasının**” sözləri “**ekspertizanın**” sözü ilə əvəz edilmişdir.

[28] 28 yanvar 2009-cu il tarixli **14** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 01, maddə 34**) ilə "Bitki və bitkiçilik məhsullarının idxalına və ixracına, Azərbaycan Respublikasının ərazisindən tranzit daşınmasına və dövriyyəsinə idxal karantin icazəsinin və fitosanitar sertifikatlarının verilməsi Qaydaları"nın 4.3-cü bəndin birinci abzasında "**Tranzit olunan**" sözləri "**Gətirilən**" sözləri ilə, "**lazım gəldikdə**" sözləri "**təkrar ixrac (tranzit) olunduqda**" sözləri ilə əvəz edilmişdir, "**uyğun**" sözündən sonra "**, fitosanitar sertifikatı və ya** " sözləri əlavə edilmişdir.

**[29]** 16 noyabr 2016-cı il tarixli **458** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti, 18 noyabr 2016-cı il, 255, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 11, maddə 1946**) ilə Qaydalara 1 nömrəli əlavənin 3-cü bəndində “**zərurət yarandıqda, laboratoriya ekspertizasından**” sözləri “**müayinə məqsədi ilə ekspertizadan** ” sözləri ilə əvəz edilmişdir.

[30] 28 yanvar 2009-cu il tarixli **14** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 01, maddə 34**) ilə 2 nömrəli əlavə - "Daxili karantin sertifikatı (nümunəvi forma)"nın "Qeydlər" hissəsi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~**Qeydlər:** 1. Karantin nəzarətində olan məhsul (yük, material) sərhəd fitosanitar nəzarəti məntəqəsinə daxil olduqda, fitosanitar karantin baxışının aparılması üçün aidiyyəti üzrə təqdim olunmalıdır.~~
~~2. Daxili karantin sertifikatı yalnız Azərbaycan Respublikasının ərazisində qüvvədədir və ixrac üçün nəzərdə tutulan bitki və bitkiçilik məhsullarına (yüklərə) verilir.~~
~~3. Daxili karantin sertifikatına görə Dövlət Fitosanitar Nəzarəti Xidmətinə, onun müfəttişlərinə və ya nümayəndələrinə heç bir maliyyə öhdəliyi tətbiq edilmir.~~

**[31]** 28 yanvar 2009-cu il tarixli **14** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 01, maddə 34**) ilə "Azərbaycan Respublikasına gətirilən və Azərbaycan Respublikasından aparılan karantin nəzarətində olan materiallara, o cümlədən baqajlarda, poçt bağlamalarında və sərnişinlərin əl yüklərində gətirilən bitki və bitkiçilik məhsullarına fitosanitar karantin baxışının keçirilməsi və laboratoriya ekspertizasının aparılması Qaydaları"nın adında və 1-ci bəndində "**gətirilən və Azərbaycan Respublikasından aparılan karantin nəzarətində olan materiallara, o cümlədən baqajlarda, poçt bağlamalarında və sərnişinlərin əl yüklərində gətirilən bitki və bitkiçilik məhsullarına**" sözləri "**gətirilmiş və respublikadan aparılması nəzərdə tutulan karantin nəzarətində olan materiallara** " sözləri ilə əvəz edilmişdir.

16 noyabr 2016-cı il tarixli **458** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti, 18 noyabr 2016-cı il, 255, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 11, maddə 1946**) ilə adında, 1-ci, 2-ci, 13-cü, 18-ci, 19-cu, 20-ci, 22-ci, 23-cü, 25-ci hissələrdə və 21-ci hissənin ikinci abzasında ismin müvafiq hallarında “**laboratoriya ekspertizası**” sözləri ismin müvafiq hallarında “**ekspertiza**” sözü ilə əvəz edilmişdir.

[32] 28 yanvar 2009-cu il tarixli **14** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 01, maddə 34**) ilə "Azərbaycan Respublikasına gətirilən və Azərbaycan Respublikasından aparılan karantin nəzarətində olan materiallara, o cümlədən baqajlarda, poçt bağlamalarında və sərnişinlərin əl yüklərində gətirilən bitki və bitkiçilik məhsullarına fitosanitar karantin baxışının keçirilməsi və laboratoriya ekspertizasının aparılması Qaydaları"nın 2-ci bənddə "**gətirilən və respublikadan aparılan karantin nəzarətində olan materiallara, o cümlədən baqajlarda, poçt bağlamalarında və sərnişinlərin əl yüklərində gətirilən bitki və bitkiçilik məhsullarına**" sözləri "**gətirilmiş və respublikadan aparılması nəzərdə tutulan karantin nəzarətində olan materiallara** " sözləri ilə əvəz edilmişdir.

15 oktyabr 2018-ci il tarixli **447** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti, 19 oktyabr 2018-ci il, 235, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 10, maddə 2162**) ilə “Azərbaycan Respublikasına gətirilmiş və respublikadan aparılması nəzərdə tutulan karantin nəzarətində olan materiallara fitosanitar karantin baxışının keçirilməsi və ekspertizanın aparılması Qaydaları”nın 2-ci hissəsində “**Kənd Təsərrüfatı Nazirliyinin yanında Dövlət Fitosanitar Nəzarəti Xidmətinin yerli qurumları (bundan sonra – Dövlət Xidməti)**” sözləri “**Qida Təhlükəsizliyi Agentliyinin regional bölmələri (bundan sonra – regional bölmə)** ” sözləri ilə əvəz edilmişdir.

[33] 28 yanvar 2009-cu il tarixli **14** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 01, maddə 34**) ilə "Azərbaycan Respublikasına gətirilən və Azərbaycan Respublikasından aparılan karantin nəzarətində olan materiallara, o cümlədən baqajlarda, poçt bağlamalarında və sərnişinlərin əl yüklərində gətirilən bitki və bitkiçilik məhsullarına fitosanitar karantin baxışının keçirilməsi və laboratoriya ekspertizasının aparılması Qaydaları"nın 3.2-ci bənddə "**gətirilən və ya ölkədən aparılan** " sözləri "**gətirilmiş və ya ölkədən aparılması nəzərdə tutulan** " sözləri ilə əvəz edilmişdir.

**[34]** 28 yanvar 2009-cu il tarixli **14** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 01, maddə 34**) ilə "Azərbaycan Respublikasına gətirilən və Azərbaycan Respublikasından aparılan karantin nəzarətində olan materiallara, o cümlədən baqajlarda, poçt bağlamalarında və sərnişinlərin əl yüklərində gətirilən bitki və bitkiçilik məhsullarına fitosanitar karantin baxışının keçirilməsi və laboratoriya ekspertizasının aparılması Qaydaları"nın 3.4-cü bənddə "**ölkədən aparılan**" sözləri "**ölkədən aparılması nəzərdə tutulan**" sözləri ilə əvəz edilmişdir.

16 noyabr 2016-cı il tarixli **458** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti, 18 noyabr 2016-cı il, 255, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 11, maddə 1946**) ilə 3.4-cü bənddən “**lazım gəldikdə**” sözləri çıxarılmışdır.

[35] 28 yanvar 2009-cu il tarixli **14** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 01, maddə 34**) ilə "Azərbaycan Respublikasına gətirilən və Azərbaycan Respublikasından aparılan karantin nəzarətində olan materiallara, o cümlədən baqajlarda, poçt bağlamalarında və sərnişinlərin əl yüklərində gətirilən bitki və bitkiçilik məhsullarına fitosanitar karantin baxışının keçirilməsi və laboratoriya ekspertizasının aparılması Qaydaları"nın 4-cü bənddə "**gətirilən və ölkədən aparılan** " sözləri "**gətirilmiş və ölkədən aparılması nəzərdə tutulan** " sözləri ilə əvəz edilmişdir.

**[36]** 16 noyabr 2016-cı il tarixli **458** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti, 18 noyabr 2016-cı il, 255, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 11, maddə 1946**) ilə 5-ci hissənin onuncu abzasında “**oluna bilər**” sözləri “**olunur**” sözü ilə əvəz edilmişdir.

[37] 28 yanvar 2009-cu il tarixli **14** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 01, maddə 34**) ilə "Azərbaycan Respublikasına gətirilən və Azərbaycan Respublikasından aparılan karantin nəzarətində olan materiallara, o cümlədən baqajlarda, poçt bağlamalarında və sərnişinlərin əl yüklərində gətirilən bitki və bitkiçilik məhsullarına fitosanitar karantin baxışının keçirilməsi və laboratoriya ekspertizasının aparılması Qaydaları"nın 7-ci bənddə "**Azərbaycan Respublikasına gətirilən karantin nəzarətində olan materiallar müvafiq sənədlərlə müşayiət olunmadığı və zərərli** " sözləri "**Zərərli**" sözü ilə əvəz edilmişdir.

15 oktyabr 2018-ci il tarixli **447** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti, 19 oktyabr 2018-ci il, 235, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 10, maddə 2162**) ilə “Azərbaycan Respublikasına gətirilmiş və respublikadan aparılması nəzərdə tutulan karantin nəzarətində olan materiallara fitosanitar karantin baxışının keçirilməsi və ekspertizanın aparılması Qaydaları”nın 7-ci və 8-ci hissələrində ismin müvafiq hallarında “**Dövlət Xidməti**” sözləri ismin müvafiq hallarında “**regional bölmə**” sözləri ilə əvəz edilmişdir.

**[38]** 16 noyabr 2016-cı il tarixli **458** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti, 18 noyabr 2016-cı il, 255, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 11, maddə 1946**) ilə 7.3-cü bənddə “**zərurəti yarandığı hallarda**” sözləri “**məqsədi ilə**” sözləri ilə əvəz edilmişdir.

[39] 28 yanvar 2009-cu il tarixli **14** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 01, maddə 34**) ilə "Azərbaycan Respublikasına gətirilən və Azərbaycan Respublikasından aparılan karantin nəzarətində olan materiallara, o cümlədən baqajlarda, poçt bağlamalarında və sərnişinlərin əl yüklərində gətirilən bitki və bitkiçilik məhsullarına fitosanitar karantin baxışının keçirilməsi və laboratoriya ekspertizasının aparılması Qaydaları"nın 9-cu bənddə "**gətirilən**" sözü "**gətirilmiş**" sözü ilə əvəz edilmişdir.

[40] 28 yanvar 2009-cu il tarixli **14** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 01, maddə 34**) ilə "Azərbaycan Respublikasına gətirilən və Azərbaycan Respublikasından aparılan karantin nəzarətində olan materiallara, o cümlədən baqajlarda, poçt bağlamalarında və sərnişinlərin əl yüklərində gətirilən bitki və bitkiçilik məhsullarına fitosanitar karantin baxışının keçirilməsi və laboratoriya ekspertizasının aparılması Qaydaları"nın 12-ci bənddə "**aparılan**" sözü "**aparılması nəzərdə tutulan**" sözləri ilə əvəz edilmişdir.

[41] 28 yanvar 2009-cu il tarixli **14** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 01, maddə 34**) ilə "Azərbaycan Respublikasına gətirilən və Azərbaycan Respublikasından aparılan karantin nəzarətində olan materiallara, o cümlədən baqajlarda, poçt bağlamalarında və sərnişinlərin əl yüklərində gətirilən bitki və bitkiçilik məhsullarına fitosanitar karantin baxışının keçirilməsi və laboratoriya ekspertizasının aparılması Qaydaları"nın 13-cü bənd yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~13. Dövlət Xidmətinin yerli qurumları tərəfindən ixrac olunan bitki və bitkiçilik məhsullarının becərilmə dövründə aparılan müşahidələrin və müvafiq laboratoriya ekspertizasının nəticələri əsasında fitosanitar karantin baxışı keçirilir, mal partiyasının formalaşdırılması, bu məhsulun respublika ərazisində dövriyyəsi və sərhəd fitosanitar nəzarəti məntəqəsinə çatdırılması üçün qadağaya və məhdudiyyətlərə əsas olmadıqda müvafiq formaya uyğun daxili karantin sertifikatı verilir. Daxili karantin sertifikatı 2 nüsxədə hazırlanır, onun bir nüsxəsi ərizəçidə (yük sahibində), digər nüsxəsi isə Dövlət Xidmətinin yerli qurumunda saxlanılır. Daxili karantin sertifikatının verilməsi barədə Dövlət Xidmətinin yerli qurumu tərəfindən dərhal məhsulun respublikadan ixrac olunduğu sərhəd fitosanitar nəzarəti məntəqəsinə bildiriş göndərilir.~~

~~Sərhəddə bitki və bitkiçilik məhsulları boşaldılaraq qablaşdırıldığı, ixrac partiyalarına formalaşdırıldığı və nəqliyyat vasitəsinə yükləndiyi zaman ərizəçi müvafiq daxili karantin sertifikatlarını fitosanitar nəzarəti məntəqəsinə təqdim etməlidir. Dövlət fitosanitar müfəttişləri tərəfindən yükə ətraflı fitosanitar karantin baxışı aparılır. Karantin nəzarətində olan materiallara ölkədən aparılmasına qadağa və məhdudiyyət qoyulmasına əsas olmadıqda, ərizəçi tərəfindən təqdim edilmiş daxili karantin sertifikatları əsasında yükə (hər nəqliyyat vahidinə) fitosanitar sertifikatı verilir.~~

~~Fitosanitar sertifikatı 2 nüsxədə hazırlanır, onun bir nüsxəsi ərizəçiyə (yük sahibinə) verilir, digər nüsxəsi isə Dövlət Xidmətinin sərhəd fitosanitar məntəqəsində saxlanılır.~~

15 oktyabr 2018-ci il tarixli **447** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti, 19 oktyabr 2018-ci il, 235, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 10, maddə 2162**) ilə “Azərbaycan Respublikasına gətirilmiş və respublikadan aparılması nəzərdə tutulan karantin nəzarətində olan materiallara fitosanitar karantin baxışının keçirilməsi və ekspertizanın aparılması Qaydaları”nın 13-cü hissəsində və 14-cü hissənin üçüncü cümləsində “**Dövlət Xidmətinin yerli qurumları**” sözləri “**regional bölmə**” sözləri ilə əvəz edilmişdir.

[42] 28 yanvar 2009-cu il tarixli **14** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 01, maddə 34**) ilə "Azərbaycan Respublikasına gətirilən və Azərbaycan Respublikasından aparılan karantin nəzarətində olan materiallara, o cümlədən baqajlarda, poçt bağlamalarında və sərnişinlərin əl yüklərində gətirilən bitki və bitkiçilik məhsullarına fitosanitar karantin baxışının keçirilməsi və laboratoriya ekspertizasının aparılması Qaydaları"nın 14-cü bəndin birinci cümləsində "**sərhəd fitosanitar nəzarəti məntəqələrində**" və "**göndərilərkən, bitki və**" sözləri müvafiq olaraq "**dövlət sərhədinin buraxılış məntəqələrində**" və "**göndərilir. Bitki və**" sözləri ilə, ikinci cümləsində "**3**" rəqəmi "**2**" rəqəmi ilə və "**iki**" sözü "**bir**" sözü ilə, üçüncü cümləsində isə "**sertifikatının bir nüsxəsini Dövlət Xidmətinin fitosanitar nəzarəti məntəqəsinə verməlidir** " sözləri "**sertifikatı gömrük orqanlarına göstərməlidir**" sözləri ilə əvəz edilmişdir.

[43] 28 yanvar 2009-cu il tarixli **14** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 01, maddə 34**) ilə "Azərbaycan Respublikasına gətirilən və Azərbaycan Respublikasından aparılan karantin nəzarətində olan materiallara, o cümlədən baqajlarda, poçt bağlamalarında və sərnişinlərin əl yüklərində gətirilən bitki və bitkiçilik məhsullarına fitosanitar karantin baxışının keçirilməsi və laboratoriya ekspertizasının aparılması Qaydaları"nın 15-ci bənd çıxarılmışdır.

[44] 28 yanvar 2009-cu il tarixli **14** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 01, maddə 34**) ilə "Azərbaycan Respublikasına gətirilən və Azərbaycan Respublikasından aparılan karantin nəzarətində olan materiallara, o cümlədən baqajlarda, poçt bağlamalarında və sərnişinlərin əl yüklərində gətirilən bitki və bitkiçilik məhsullarına fitosanitar karantin baxışının keçirilməsi və laboratoriya ekspertizasının aparılması Qaydaları"nın 17ci bənd çıxarılmışdır.

**[45]** 15 oktyabr 2018-ci il tarixli **447** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti, 19 oktyabr 2018-ci il, 235, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 10, maddə 2162**) ilə “Azərbaycan Respublikasına gətirilmiş və respublikadan aparılması nəzərdə tutulan karantin nəzarətində olan materiallara fitosanitar karantin baxışının keçirilməsi və ekspertizanın aparılması Qaydaları”nın 18-ci və 27-ci hissələrində ismin müvafiq hallarında “**Dövlət Xidməti**” sözləri ismin müvafiq hallarında “**Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi** ” sözləri ilə əvəz edilmişdir.

**[46]** 28 dekabr 2019-cu il tarixli **510** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti, 30 dekabr 2019-cu il, 292, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cı il, 12, maddə 2091** ) ilə “Azərbaycan Respublikasına gətirilmiş və respublikadan aparılması nəzərdə tutulan karantin nəzarətində olan materiallara fitosanitar karantin baxışının keçirilməsi və ekspertizanın aparılması Qaydaları”nın 26-cı hissəsində “**Tarif (qiymət) Şurası**” sözləri “**Nazirlər Kabineti**” sözləri ilə əvəz edilmişdir.

**[47]** 4 sentyabr 2008-ci il tarixli 202 nömrəli Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Qərarı(**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 9, maddə 853** ) ilə «Fitosanitar sertifikatının verilməsi üçün tələb

olunan sənədlərin Siyahısı»nın 2-ci bəndinin birinci abzasında **«şəxslərin dövlət qeydiyyatı»** sözləri **«şəxslər»** sözü ilə əvəz edilmişdir.

[48] 28 yanvar 2009-cu il tarixli **14** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 01, maddə 34**) ilə "Azərbaycan Respublikasının ərazisindən tranzit daşınan karantin nəzarətində olan materiallar üzərində fitosanitar nəzarətinin həyata keçirilməsi Qaydası"nın 1-ci bənddə "**Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin yanında Dövlət Fitosanitar Nəzarəti Xidmətinin yerli qurumları (bundan sonra - Dövlət Xidməti)**" sözləri "**gömrük orqanları**" sözləri ilə əvəz edilmişdir.

**[49]** 15 oktyabr 2018-ci il tarixli **447** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 19 oktyabr 2018-ci il, 235, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 10, maddə 2162**) ilə "Azərbaycan Respublikasının ərazisindən tranzit daşınan karantin nəzarətində olan materiallar üzərində fitosanitar nəzarətinin həyata keçirilməsi Qaydası"nın 2-ci hissənin birinci cümləsində " **dövlət fitosanitar nəzarəti xidmətinə** " sözləri "**Agentliyə**" sözü ilə, ikinci cümləsində " **Dövlət fitosanitar nəzarəti xidməti** " sözləri "**Agentlik**" sözü ilə əvəz edilmişdir.

[50] 28 yanvar 2009-cu il tarixli **14** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 01, maddə 34**) ilə "Azərbaycan Respublikasının ərazisindən tranzit daşınan karantin nəzarətində olan materiallar üzərində fitosanitar nəzarətinin həyata keçirilməsi Qaydası"nın 2-ci bənd yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~2. Karantin tətbiq edilən zərərli orqanizmlərin ölkə ərazisinə daxil olmasının və yayılmasının qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisindən tranzit daşınan karantin nəzarətində olan materialların üzərində Dövlət Xidməti tərəfindən gömrük tələblərinə riayət etməklə aşağıdakı fitosanitar tədbirlər həyata keçirilə bilər:~~

~~2.1. analiz (test), müayinə, məhsulunu saxlanması və məhv edilməsi məqsədilə bitki və bitkiçilik məhsullarını, digər karantin nəzarətində olan materialları və yükləri sərhəd fitosanitar nəzarəti məntəqələrində saxlamaq, geri qaytarmaq və onların respublika ərazisinə daxil olmasına məhdudiyyətlər qoymaq;~~

~~2.2. karantin tətbiq edilən zərərli orqanizmlərin əraziyə daxil olması təhlükəsi yarandığı hallarda bitki və bitkiçilik məhsullarının respublikaya gətirilməsini qadağan etmək və ya məhdudlaşdırmaq.~~

[51] 28 yanvar 2009-cu il tarixli **14** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 01, maddə 34**) ilə "Azərbaycan Respublikasının ərazisindən tranzit daşınan karantin nəzarətində olan materiallar üzərində fitosanitar nəzarətinin həyata keçirilməsi Qaydası"nın 5-ci bənddə "**dövlət fitosanitar müfəttişləri**" sözləri "**gömrük orqanları**" sözləri ilə "**Dövlət Xidmətinin müvafiq ştampı**" sözləri isə "**müvafiq ştamp**" sözləri ilə əvəz edilmişdir.

[52] 28 yanvar 2009-cu il tarixli **14** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 01, maddə 34**) ilə "Azərbaycan Respublikasının ərazisindən tranzit daşınan karantin nəzarətində olan materiallar üzərində fitosanitar nəzarətinin həyata keçirilməsi Qaydası"nın 8-ci bənddə "**Dövlət Xidməti**" sözləri "**Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Nəzarəti Xidmətinin yerli qurumları**" sözləri ilə əvəz edilmişdir.

15 oktyabr 2018-ci il tarixli **447** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 19 oktyabr 2018-ci il, 235, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 10, maddə 2162**) ilə "Azərbaycan Respublikasının ərazisindən tranzit daşınan karantin nəzarətində olan materiallar üzərində fitosanitar nəzarətinin həyata keçirilməsi Qaydası"nın 8-ci hissəsində " **Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Nəzarəti Xidmətinin yerli qurumları**" sözləri "**Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin regional bölmələri** " sözləri ilə əvəz edilmişdir.